| | |
|---|---|
| **AKTIN NÖVÜ** | **AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI** |
| **QƏBUL EDİLDİYİ TARİX** | **24.01.2003** |
| **QEYDİYYAT NÖMRƏSİ** | **844** |
| **ADI** | **Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturunun təkmilləşdirilməsi haqqında** |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-01-2003, Nəşr nömrəsi: 01, Maddə nömrəsi: 36)** |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | **24.01.2003** |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | **010.000.000**<br>**110.000.000** |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | **01.07.2011** |

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturunun təkmilləşdirilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə etdikdən sonra iqtisadiyyatda və dövlət idarə etməsində islahatların aparılması ən mühüm vəzifələrdən biri olmuşdur. Ölkədə bazar iqtisadiyyatı münasibətlərinin formalaşması və müasir standartlara cavab verən idarəetmə mexanizminin yaradılması köklü dəyişikliklərin aparılmasını tələb etmişdir.

Dövlət idarəetməsinin səmərəliliyinin artırılması, iqtisadiyyatın yeni prinsiplər əsasında tənzimlənməsi məqsədilə son illərdə mühüm addımlar atılmışdır. Çoxsaylı nazirlik, dövlət komitəsi, şirkəti, konserni və digər qurumların strukturlarına yenidən baxılmış, mövcud mərkəzi icra hakimiyyəti orqanlarının səlahiyyətləri bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılmış, zəruri funksiyalara malik yeni təsisatlar yaradılmışdır.

Həyata keçirilən islahatlar iqtisadiyyatın və dövlət idarəetməsinin bütün sahələrini əhatə etmiş və bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olması, iqtisadi təşəbbüsə geniş imkanların yaradılması, insanların etibarlı sosial vəziyyətinin təmin edilməsi və dövlət mülkiyyətinin özəlləşdirilməsi üçün münbit şəraitin yaradılmasına səbəb olmuşdur. Qeyd edilən hər bir istiqamətə dair dövlət tərəfindən konkret qərarlar qəbul edilmiş və tədbirlər görülmüşdür.

Tarixən Azərbaycanın iqtisadiyyatının özəyini neft-qaz sənayesi təşkil etmişdir və ölkəmizin ən böyük nailiyyətlərindən biri bu sahədə qüdrətli elmi-texniki və kadr potensialının, geniş infrastrukturun yaradılması olmuşdur. Məhz bu sahə iqtisadiyyatın aparıcı amilinə çevrilmiş və onun inkişafına daim xüsusi diqqət yetirilmişdir.

Son dövrdə respublikamızın tərəqqisi üçün taleyüklü əhəmiyyət daşıyan yeni neft strategiyası və doktrinası irəli sürülmüşdür və uğurla həyata keçirilir.

Azərbaycan 1994-cü il sentyabrın 20-də "Əsrin kontraktı"nın imzalanması ilə regionda ilk dəfə olaraq dünyanın bir çox tanınmış şirkətləri ilə özünə məxsus olan neft və qaz yataqlarının birgə istismarına başlamışdır. Aparılan işlər ölkənin beynəlxalq aləmdə nüfuzunun artmasına, iqtisadi əlaqələrin inteqrasiyasına güclü təkan vermişdir.

Neft-qaz kompleksi aparılan iqtisadi və dövlət idarəetməsi sahəsində islahatlardan kənarda qalmamışdır. Belə ki, göstərilən zaman kəsiyində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin idarə edilməsinin səmərəliliyinin artırılması məqsədi ilə dəfələrlə onun strukturuna dəyişikliklər edilmiş, mövcud infrastruktur təkmilləşdirilmişdir. Ən əhəmiyyətli addımlardan biri 2001-ci il 18 aprel tarixində Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Azərbaycan Respublikasının Yanacaq və Energetika Nazirliyinin yaradılması olmuşdur. Eyni zamanda, dövlət siyasətinin başlıca istiqamətlərindən biri olan neft yataqlarının birgə işlənməsindən əldə edilən gəlirlərin ölkənin iqtisadi və sosial tərəqqisinə yönəldilməsini təmin etmək məqsədi ilə 1999-cu il 29 dekabr tarixində Azərbaycan Respublikasının Dövlət Neft Fondunun yaradılması olmuşdur.

Mütəmadi və sistemli şəkildə aparılan iqtisadi islahatların nəticəsidir ki, "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"na uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin "Yanacaq-energetika kompleksi müəssisələrinin özəlləşdirilməsi haqqında" 2001-ci il 22 mart tarixli Sərəncamına əsasən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin bilavasitə neftin hasilatı və emalı ilə məşğul olmayan 68 müəssisəsinin özəlləşdirilməsi barədə qərar qəbul edilmiş və onlar Əmlak Məsələləri Dövlət Komitəsinin sərəncamına verilmişdir.[1]

Görülmüş ciddi işlər dərin islahatların daha məqsədyönlü aparılmasına imkan vermişdir. Lakin bununla belə, bu sahədə bir sıra əlavə tədbirlərin həyata keçirilməsinə, idarəetmə üslublarının keyfiyyətcə fərqli, beynəlxalq standartlara cavab verən səviyyəyə çatdırılmasına zərurət yaranmışdır.

Qeyd edilənlərlə əlaqədar respublikanın neft və qaz resurslarının daha səmərəli istifadəsi, daxili istehlakın və ixracat potensialının ehtiyaclarının tam ödənilməsi, yanacaq-energetika kompleksinin tərkibinə daxil olan müəssisələrin maliyyə nizam-intizamının əsaslı surətdə möhkəmləndirilməsi, onların fəaliyyətinin bazar iqtisadiyyatı prinsiplərinə uyğun olaraq ardıcıl qurulması və bu vəzifələrin həyata keçirilməsini təmin edən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin yeni idarəetmə strukturunu tətbiq etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi təsdiq edilsin (əlavə olunur - Əlavə I).
2. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Strukturu təsdiq edilsin (əlavə olunur - Əlavə II).
3. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə tapşırılsın ki, bir ay müddətində qanunvericiliklə nəzərdə tutulmuş qaydada Şirkətin tərkibinə daxil olan:

Dənizdə Neft və Qaz Çıxarma İstehsalat Birliyini və Quruda Neft və Qaz Çıxarma İstehsalat Birliyini birləşdirsin və onların bazasında "Azneft" İstehsalat Birliyini yaratsın;

Xarici İqtisadi Əlaqələr İdarəsini və "Azərnefttəchizat" Birliyini birləşdirsin və onların bazasında "Marketinq və iqtisadi əməliyyatlar" İdarəsini yaratsın;

Magistral Neft Kəmərləri İstehsalat Birliyinin bazasında "Neft kəmərləri" idarəsini yaratsın;

"Şelflayihətikinti" İstehsalat Birliyinin bazasında "Bakı dərin özüllər zavodu"nu yaratsın;

"Azərneftyağ" İstehsalat Birliyinin bazasında "Azərneftyağ" neft emalı zavodunu yaratsın;

"Azərneftyanacaq" İstehsalat Birliyinin bazasında "Azərneftyanacaq" neft emalı zavodunu yaratsın.

4. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin tərkibinə daxil olan "Xəzərdənizqazmatikinti" Tresti, "Xəzərdənizneftsosialtikinti" Tresti və Avtonəqliyyat Kontoru özəlləşdirməyə açıq elan edilsinlər. Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin və özəlləşdirməyə açıq elan edilmiş müəssisələrin rəhbərlərinə tapşırılsın ki, həmin müəssisələr özəlləşdirilənədək və ya səhmdar cəmiyyətlərinə çevrilənədək onların idarə olunmasına və əmlakının qorunub saxlanılmasına görə şəxsən məsuliyyət daşıyırlar.
5. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə tapşırılsın ki, bu Fərmanın 4-cü bəndində göstərilən müəssisələrin qanunvericiliyə müvafiq olaraq özəlləşdirilməsinin həyata keçirilməsini təmin etsin.[2]
6. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsin.
7. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsinin yeni redaksiyasının təsdiqi haqqında" 1994-cü il 5 aprel tarixli 126 nömrəli Fərmanı və "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin yeni idarəetmə strukturunun təsdiqi haqqında" 1994-cü il 10 yanvar tarixli 50 nömrəli Sərəncamı qüvvədən

düşmüş hesab edilsin.

8. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 24 yanvar 2003-cü il
844

ƏLAVƏ I

Azərbaycan Respublikası Prezidentinin
2003-cü il 24 yanvar tarixli 844 nömrəli fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin**

## N İ Z A M N A M Ə S İ

### I. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (bundan sonra mətndə - Şirkət adlandırılacaq) fəaliyyəti neft, neft-kimya və qaz sənayesinin vahid kompleks kimi səmərəli fəaliyyətinin və inkişafının təmin edilməsindən, istehlakçıların enerji daşıyıcılarına olan tələbatının etibarlı ödənilməsindən ibarətdir.

1.2. Şirkət kommersiya fəaliyyətini həyata keçirir. Şirkət hasil edilmiş bütün karbohidrogenlərə və onların emalından alınan neft, neft-kimya və qaz məhsullarına münasibətdə sahibliyi həyata keçirir.[3]

1.3. Şirkət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunları ilə təsdiq edilmiş neftin və qazın kəşfiyyatı və işlənməsi sahəsində bağlanmış sazişləri və bu Nizamnaməni rəhbər tutur.

1.4. Şirkət hüquqi şəxsdir, müstəqil balansa (Şirkətin balansı), banklarda, o cümlədən xarici banklarda, hesablaşma və digər hesablara malikdir. Şirkət illik maliyyə hesabatları ilə yanaşı, birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını tərtib edir.[4]

1.5. Şirkət üzərində Azərbaycan Respublikasının gerbi təsvir edilmiş və Şirkətin adı göstərilmiş möhürə, ştamplara, blanklara, loqotipə, emblemə və digər fərqləndirici nişanlara malikdir. [5]

1.6. Şirkətin qanunvericiliyə müvafiq olaraq öz adından əmlak və digər hüquqlar əldə etmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və cavabdeh kimi çıxış etmək hüquqları vardır.

1.7. Şirkət öhdəliklərinə görə əmlakı ilə cavabdehdir. Şirkət dövlətin öhdəliklərinə görə cavabdeh deyildir, dövlət də qanunvericiliklə nəzərdə tutulmuş hallar istisna olmaqla, Şirkətin öhdəliklərinə görə cavabdeh deyildir. [6]

1.8. Şirkətin tam rəsmi adı - Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, qısaldılmış rəsmi adı - SOCAR.[7]

Şirkətin ingilis dilində tam adı – State Oil Company of Azerbaijan Republic, Şirkətin ingilis dilində qısaldılmış adı – SOCAR.

1.9. Şirkətin Baş ofisi Bakı şəhərində yerləşir.[8]

-

### II. Şirkətin məqsədi, vəzifələri, fəaliyyət növləri və səlahiyyətləri

2.1. Şirkətin əsas məqsədi Azərbaycan Respublikasının ərazisində və onun hüdudlarından kənarda, quru və dəniz sahələrində neft və qaz yataqlarının axtarışını, kəşfiyyatını, hazırlanmasını, işlənməsini, neftin, qazın, kondensatın hasilatını, nəqlini, emalını, neft-kimya sənayesinin inkişaf etdirilməsini, neft, neft-kimya və qaz məhsullarının paylanmasını, satışını, habelə istehlakçıların müvafiq enerji daşıyıcılarına olan tələbatının sabit və dayanıqlı ödənilməsi sahəsində (bundan sonra — sahə) müasir tələblərə cavab verən rəqabətə davamlı malların, işlərin və xidmətlərin təqdim olunmasını təmin etməkdən və gəlir əldə etməkdən ibarətdir.

2.2. Bu Nizamnamənin 2.1-ci bəndində göstərilən məqsədlərə nail olmaq üçün Şirkət aşağıdakı vəzifələrin yerinə yetirilməsini təmin edir:

sahə üzrə enerji təhlükəsizliyinin təmin edilməsinin mühüm istiqamətlərindən olan neft-qaz hasilatının səviyyəsinin sabit saxlanılması, artırılması, habelə Azərbaycan Respublikasının qlobal enerji təhlükəsizliyi sisteminə inteqrasiya olunması prosesinin gücləndirilməsini;

müasir texnologiyaları, avadanlıq və materialları Azərbaycan Respublikasının neft-qaz və neft-kimya sənayesinə cəlb etməklə, yerli infrastrukturun imkanlarının gücləndirilməsini və Şirkətin istehsalat-təsərrüfat fəaliyyətinin mühüm göstəriciləri üzrə dünyanın aparıcı şirkətləri sırasına çıxarılmasını;

Şirkətin beynəlxalq neft-qaz, neft-kimya layihələrinə inteqrasiya olunması üçün Azərbaycan Respublikasının hüdudlarından kənarda səmərəli investisiya fəaliyyətinin həyata keçirilməsini;

sahədə risklərin idarə olunması sistemlərinin formalaşdırılmasını və qabaqcıl idarəetmə sistemlərinin öyrənilməsini, tətbiq edilməsini və inkişaf etdirilməsini;

Azərbaycan Respublikasının karbohidrogen ehtiyatlarının daha səmərəli istifadəsini, istehlakçıların sahədə istehsal olunan mallara, işlərə və xidmətlərə tələbatının daha dolğun ödənilməsini təmin edən neft, qaz və kondensatın hasilatı, nəqli, emalı, paylanması, daxili və xarici bazarlarda satışı üzrə istehsal-texnoloji və təchizat sistemlərinin, eləcə də neft-kimya sənayesinin etibarlı və səmərəli fəaliyyətinin təşkil edilməsini;

sahənin maddi-texniki bazasının gücləndirilməsini, mövcud istehsal güclərindən səmərəli istifadə olunmasını, ən

müasir texnika və texnologiyalardan istifadə etməklə, ətraf mühitə zərərli təsirin minimuma endirilməsini;

elmi-texniki potensialın gücləndirilməsi və innovasiya layihələrinin geniş tətbiq edilməsi hesabına sahədə rəqabətə davamlı mal, iş və xidmətlərin təqdim edilməsinə nail olunmasını və sahənin inkişafı üçün Şirkətin qarşısında duran digər vəzifələrin həyata keçirilməsini.

2.3. Şirkət qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün aşağıdakı fəaliyyət növlərini həyata keçirir:

Azərbaycan Respublikasında və onun hüdudlarından kənarda sahənin istehsal və sosial bazasının inkişafına, Şirkətin strukturuna daxil olan hüquqi şəxslərin və hüquqi şəxs statusuna malik olmayan (nümayəndəliklər, filiallar və sair) qurumların (bundan sonra — strukturuna daxil olan qurumlar) modernləşdirilməsinə, genişləndirilməsinə, yenidən qurulmasına, onların yeni texnika və texnologiyalarla təchiz edilməsinə xidmət edən investisiya fəaliyyətini;

geofiziki, geoloji axtarış-kəşfiyyat işlərinin əsas istiqamətlərinin işlənib hazırlanmasını, təsdiq edilməsini, müasir tikinti texnologiyalarından və texniki vasitələrdən istifadə etməklə, geoloji-kəşfiyyat işlərinin aparılmasını, yeni kəşf olunmuş yataqların işlənməyə verilməsi haqqında qərarların qəbul edilməsini, Şirkətin strukturuna daxil olan qurumlar tərəfindən istismar olunan yataqların təcrübə-sənaye istismar layihələrinin, texnoloji sxemlərinin, neft, qaz və qaz kondensatı yataqlarının işlənməsi layihələrinin hazırlanmasını, təsdiq edilməsini və yataqların işlənməsini, neft, qaz quyularının qazılmasını və sahənin inkişafı ilə əlaqədar digər dağ-mədən işlərinin, dağ və buruq qazmalarının həyata keçirilməsini;

təsərrüfatçılıq üsullarının və formalarının təkmilləşdirilməsini, sahə üzrə elmi tədqiqat, layihələndirmə və tikinti-quraşdırma, o cümlədən müvafiq dövlət standartlarına uyğun olaraq I və II məsuliyyət səviyyəli bina və qurğuların mühəndis-axtarış, layihələndirmə, tikinti-quraşdırma işlərinin həyata keçirilməsini və elmi nailiyyətlərin istehsalatda tətbiq edilməsini;

neftin, qazın və kondensatın hasilatı, nəqli və emalı üzrə texnoloji sistemlərin fasiləsiz fəaliyyətinin təmin edilməsini, neft-kimya sənayesinin inkişaf etdirilməsini, ümumi qəbul olunmuş beynəlxalq standartların tələblərinə uyğun neft, neft-kimya və qaz məhsullarının istehsalına imkan verən istehsal güclərinin formalaşdırılmasını;

sahədə istehsal olunan malların, işlərin və xidmətlərin rəqabət qabiliyyətini gücləndirən texnoloji yeniliklərin əldə olunmasını və sahədə istehsal olunan məhsulların, eləcə də neftin, qazın və kondensatın daxili və xarici bazarda satışı sistemlərinin təkmilləşdirilməsini;

sahənin istehsal-təsərrüfat ehtiyaclarını təmin etmək üçün malların (işlərin, xidmətlərin) satın alınması üzrə əməliyyatların qanunazidd olmadan, beynəlxalq təcrübəyə və alqı-satqı standartlarına cavab verən Şirkətin daxili normativ sənədlərinin tələblərinə uyğun olaraq həyata keçirilməsini;

müxtəlif növ nəqliyyat vasitələri ilə sərnişin və yük daşımaları, o cümlədən sahənin inkişafı üçün zəruri olan təhlükəli yüklərin nəqli və saxlanması ilə bağlı xidmətlərin göstərilməsini;

sahənin infrastrukturunun etibarlı mühafizəsini və idarəetmə prosesləri üzrə daxili nəzarət sistemlərini təmin edən Şirkətin mühafizə qurumlarının və daxili tədqiqat xidmətinin fəaliyyətinin təşkil edilməsini və bu işin lazımi səviyyədə qurulması üçün tələb olunan müasir avadanlıqların, texnologiyaların, digər texniki və xüsusi vasitələrin alınmasını və istifadəsinin həyata keçirilməsini;

sahənin normal fəaliyyətinin və inkişafının təmin edilməsində zəruri olan qabaqcıl idarəetmə sistemlərinin, informasiya texnologiyalarının və rabitə xidmətlərinin təşkil olunmasını, etibarlı informasiya mühafizə vasitələrinin layihələndirilməsini və tətbiq edilməsini;

sahənin inkişafına dair uzunmüddətli proqnozların, məqsədli kompleks istehsal, elmi-texniki, iqtisadi və sosial proqramların işlənib hazırlanmasını, bu sahədə qəbul edilmiş dövlət proqramları da daxil olmaqla, onların icrasının təmin edilməsini;

Şirkətin strukturuna daxil olan qurumların işinin təşkil edilməsini və onların gəlir və xərclər smetası ilə müəyyən olunmuş xərclərinin ödənilməsini;

istehsalın səmərəliliyinin yüksəldilməsini, enerjiyə və material ehtiyatlarına qənaət siyasətinin həyata keçirilməsini, sahə üzrə texnoloji itki, sərf və digər normaların işlənib hazırlanmasını və vaxtaşırı təkmilləşdirilməsini, Şirkətin strukturuna daxil olan qurumlar arasında əlverişli istehsal-texnoloji və təsərrüfat əlaqələrinin gücləndirilməsini;

dövlət orqanları, ictimai təşkilatlar, sahə üzrə aparıcı şirkətlər və sahibkarlarla qarşılıqlı əlaqələrin gücləndirilməsini, vətəndaşların ərizə, şikayət və müraciətlərinə qanunla müəyyən olunmuş qaydada və müddətdə baxılmasının təmin edilməsini;

karbohidrogen ehtiyatları tam tükənmiş torpaqların bərpasını və ətraf mühitin mühafizəsi üçün digər tədbirlərin görülməsini, o cümlədən toksiki istehsalat tullantılarının ekoloji tələblərə uyğun olaraq utilizasiyasını və zərərsizləşdirilməsini, habelə ekoloji cəhətdən təmiz alternativ (bərpa olunan) enerji mənbələrindən istifadəyə imkan yaradan avadanlıq və qurğuların əldə edilməsini, quraşdırılmasını və səmərəli istismar edilməsini;

karbohidrogen yataqlarının kəşfiyyatı, işlənməsi sahəsində qabaqcıl texnologiyaları və sərmayələri cəlb etmək məqsədi ilə bu sahədə aparıcı şirkətlərlə hüquqi öhdəliklər yaratmayan ilkin razılaşmaların əldə olunması üçün danışıqların aparılmasını və müəyyən olunmuş qaydada verilmiş səlahiyyətlərə uyğun olaraq, Azərbaycan Respublikasının dəniz və quru sahəsində karbohidrogen yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü sazişlərinin (bundan sonra — HPBS), habelə sahənin perspektivli inkişafı üçün digər beynəlxalq sazişlərin (kontraktların) bağlanması üçün danışıqların aparılmasını, onların layihələrinin hazırlanmasını, aidiyyəti dövlət orqanları ilə razılaşdırılmasını, imzalanmasını, onlardan irəli gələn qərarların qəbul edilməsini və icrasının təmin edilməsini;

sahənin inkişafı üçün zəruri sərmayələrin, qabaqcıl texnika, texnologiya və avadanlıqların cəlb edilməsini və sahədə göstərilən xidmətlərin təkmilləşdirilməsi üçün hüquqi şəxs yaratmaqla (birgə müəssisələr) və ya hüquqi şəxs yaratmadan (alyanslar) birgə layihələrin həyata keçirilməsini və layihələrin təsis sənədlərinə uyğun olaraq, onların idarə olunmasının təmin edilməsini;

Şirkətin xarici iqtisadi əlaqələrinin inkişaf etdirilməsi üçün xarici ölkələrdə nümayəndəliklərinin, filiallarının açılmasını, hüquqi şəxslərin yaradılmasını və bu qurumların fəaliyyəti üçün zəruri olan aktivlərin əldə olunmasını;

sahə üzrə mühəndis-axtarış, layihələndirmə, tikinti-quraşdırma işləri, o cümlədən ixrac məqsədli neft-qaz fəaliyyəti üzrə sənədlərin ekspertizasının həyata keçirilməsini, perspektivli layihələrin qiymətləndirilməsini və sahənin

infrastrukturunun inkişaf etdirilməsinə xidmət edən beynəlxalq əməkdaşlıq əlaqələrinin gücləndirilməsini;

sahə üzrə kadrların seçilməsini, yerləşdirilməsini, zəruri kadr potensialının formalaşdırılması üçün ixtisaslaşdırılmış ali, orta ixtisas və *peşə* təhsili müəssisələrinin təsis edilməsini və idarə olunmasını, kadrların ixtisasının artırılması üçün müvafiq seminar və treninqlərin təşkil edilməsini, habelə xarici ölkələrin qabaqcıl təhsil müəssisələrində kadrların hazırlanması üçün tədbirlərin görülməsini;[9]

sahədə çalışan işçilərinin sosial rifah halının yaxşılaşdırılması məqsədilə, eləcə də dövlət tərəfindən həyata keçirilən sosial-iqtisadi inkişaf proqramlarında nəzərdə tutulmuş tədbirlərin təmin edilməsi üçün sosial təyinatlı obyektlərin: mənzil-tikinti kooperativlərinin, idman sağlamlıq qurğularının, tibb, gigiyena və epidemiologiya, məktəbəqədər təhsil müəssisələrinin, sanatoriya və istirahət sahələrinin, qanunvericiliyə uyğun olaraq bağçılıq təsərrüfatlarının yaradılmasını, idarə olunmasını və inkişaf etdirilməsini, digər sosial təminat tədbirlərinin, o cümlədən ehtiyacı olanlara və ya onların ailə üzvlərinə yardımların müəyyən edilməsini;

beynəlxalq konqres, simpozium, sərgi və digər toplantılarda iştirak edilməsini, sahə üzrə toplanmış tarixi nümunələrin və ölkənin mədəni irsinin qorunub saxlanmasını, o cümlədən neft muzeyinin işinin formalaşdırılmasını və idarə edilməsini, yerli və beynəlxalq neft-qaz sərgilərinin təşkil edilməsini;

iqtisadi, sosial və istehsal-texniki proqramların həyata keçirilməsi üçün yerli və xarici banklardan, beynəlxalq maliyyə institutlarından və digər mənbələrdən kredit vəsaitlərinin cəlb olunmasını, strukturuna daxil olan qurumların və iştirakçı olduğu birgə müəssisələrin maliyyə-kredit fəaliyyətinin idarə olunmasını və onlara təyinatlı maliyyə yardımlarının və kredit vəsaitlərinin ayrılmasını;

bu Nizamnaməyə uyğun olaraq sahə üzrə qanunvericiliklə qadağan olunmayan digər fəaliyyət növlərinin həyata keçirilməsini.

2.4. Şirkət fəaliyyət növlərinin səmərəli həyata keçirilməsini təmin etmək üçün qanunazidd olmadan, aşağıdakılar barədə müstəqil qərar qəbul etmək səlahiyyətinə malikdir:

Şirkətin strukturuna daxil olan qurumların illik iş proqramlarının yerinə yetirilməsi haqqında hesabatların təsdiq edilməsi və bu proqramlara uyğun olaraq,

onların gəlir və xərclər smetasının müəyyənləşdirilməsi;

Şirkətin strukturuna daxil olan qurumların balansında olan əmlaka münasibətdə sərəncam vermək hüququnun həyata keçirilməsi, o cümlədən həmin əmlakın balansdan balansa, icarəyə və istifadəyə verilməsi, Şirkətin iştirak etdiyi birgə layihələrə pay şəklində qoyulması, silinməsi (ləğv edilməsi), qiymətləndirilməsi, habelə təyinatının dəyişdirilməsi;

Şirkətin və onun strukturuna daxil olan qurumların istifadəsi üçün ayrılmış torpaqların təyinatı üzrə istifadə edilməsi, bu torpaqlardan istifadə hüquqlarının strukturuna daxil olan qurumlara ötürülməsi və həmin torpaqların mülkiyyətçiyə geri qaytarılmasına müvafiq qaydada razılıq verilməsi;

Şirkətin strukturuna daxil olan qurumların, nizamnamə kapitalındakı səhmlərinin (paylarının) nəzarət zərfi Şirkətə məxsus olan müəssisələrin yanacaq-enerji resurslarının istehsalı (hasilatı), ötürülməsi (nəqli), paylanması və istehlakı sahəsində texnoloji itki, sərf və əməyin ödənilməsi normalarının, eləcə də sahə üzrə tətbiqi məcburi xarakter daşıyan digər daxili normativ sənədlərin hazırlanması, təsdiq və tətbiq edilməsi;

HPBS-nin şərtlərinə əsasən podratçıların Azərbaycan tərəfinə təhvil verdikləri aktivlərin əvəzsiz olaraq mülkiyyətinə qəbul edilməsi, Şirkətin neft-qaz əməliyyatlarında istifadəsini davam etdirmək üçün Şirkətin strukturuna daxil olan qurumların balansına ötürülməsi;

Şirkətin strukturuna daxil olan qurumların, səhmləri (payları) Şirkətə məxsus olan birgə müəssisələrin təsis sənədlərinə dəyişikliklərin edilməsi, Şirkətin payının azaldılması, artırılması və özgəninkiləşdirilməsi;

xarici ölkələrdə nümayəndəliklərinin və filiallarının açılması, hüquqi şəxslərin yaradılması və bu təsisatlar vasitəsi ilə xaricdə əldə edilmiş aktivlərə münasibətdə sahiblik, istifadə və sərəncam hüquqlarının, habelə Şirkətin strukturuna daxil olan qurumlarda xarici iqtisadi əlaqələrə aid bütün məsələlərin təşkili, baxılması və həllinin mərkəzləşdirilmiş qaydada həyata keçirilməsi.

2.5. Şirkətin strukturuna daxil olan qurumlar bu Nizamnamə ilə müəyyən olunmuş fəaliyyət növləri ilə xüsusi razılıq (lisenziya) almadan məşğul ola bilərlər. [10]

### III. Şirkətin Nizamnamə kapitalı, əmlakı və mənfəəti[11]

3.1. Şirkətin nizamnamə kapitalı *1,628,000,000 (bir milyard altı yüz iyirmi səkkiz milyon)* manat təşkil edir və dövlətə məxsusdur.[12]

3.2. Şirkətin əmlakı əsas fondlardan, dövriyyə vəsaitlərindən, digər maddi və qeyri-maddi aktivlərdən ibarətdir. Şirkətin əmlakı onun müstəqil balansında əks olunur. Şirkət əmlakı üzərində sahiblik, istifadə və sərəncam vermək hüquqlarını həyata keçirir.[13]

3.3. Şirkətin əmlakı aşağıda göstərilən mənbələr hesabına təşkil olunur:

dövlət tərəfindən verilən əmlak;[14]

kommersiya fəaliyyətinin həyata keçirilməsindən əldə edilən gəlir;

bankların və digər kreditorların kreditləri;

qanunvericiliklə qadağan olunmayan digər mənbələr.

3.4. Şirkət qanunvericiliklə nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri müəyyən edilmiş qaydada ödədikdən sonra özünün və strukturuna daxil olan qurumların fəaliyyətindən əldə edilmiş mənfəəti mərkəzləşdirilmiş fondlarda cəmləşdirmək və həmin vəsaitlər üzərində müstəqil sərəncam vermək hüququna malikdir.[15]

### IV. Şirkətin strukturu

*4.1. Şirkətin strukturunu Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla Azərbaycan İnvestisiya Holdinqi (bundan sonra – AİH) təsdiq edir.*[16]

~~4.2. Şirkətin rəhbərliyi Şirkətin məqsəd və vəzifələrinə nail olmaq üçün onun fəaliyyətinin predmetinə daxil olan fəaliyyət növlərinin səmərəli təşkilini və həyata keçirilməsini təmin edir.~~[17]

4.3. *Şirkət* strukturuna daxil olan qurumlar vasitəsilə neft və qaz yataqlarının kəşfiyyatı, tikintisi, işlənməsi, neftin, qazın, kondensatın , eləcə də neft, neft-kimya və qaz məhsullarının nəql edilməsi, emalı, paylanması, satışı, servis xidmətlərinin yerinə yetirilməsi və Şirkətin digər vəzifələrinin və fəaliyyət növlərinin həyata keçirilməsini təmin edir.[18]

*4.4. Şirkətin strukturuna daxil olan qurumların, həmçinin törəmə və asılı təsərrüfat cəmiyyətlərinin yaradılması, yenidən təşkili və ləğvi barədə qərarları Şirkətin Müşahidə Şurası qəbul edir.*[19]

4.5. *Şirkətin strukturuna daxil olan qurumlar* arasındakı münasibətlər, o cümlədən əmlakın balansdan balansa verilməsi, malların, işlərin və xidmətlərin təqdim edilməsi, qarşılıqlı hesablaşmaların aparılması *Azərbaycan Respublikasının qanunları və bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, bu Nizamnamə və AİH-nin müəyyən etdiyi qaydalar və ya AİH-nin razılığı ilə* Şirkətin qanunlara zidd olmayan daxili normativ sənədlərinə uyğun olaraq həyata keçirilir.[20]

*4.6. Şirkət tərəfindən bəzi fəaliyyət növlərinin həyata keçirilməsinin tam və ya qismən onun strukturuna daxil olan qurumlara həvalə edilməsi barədə qərarları Şirkətin Müşahidə Şurası qəbul edir.*[21]

~~4.7. Şirkətin prezidenti Şirkətin strukturuna daxil olan qurumlarının və səlahiyyətli idarəetmə orqanlarının (Şirkətin Şurası və komitələrinin) müvafiq olaraq nizamnamələrini və əsasnamələrini təsdiq edir.~~[22]

4.8. Hüquqi və fiziki şəxslərlə yaradılan cəmiyyətlərdə, kooperativlərdə, hüquqi şəxslərin ittifaqlarında və digər birgə layihələrdə *Şirkətin bilavasitə iştirakı ilə bağlı qərarları Şirkətin Müşahidə Şurası qəbul edir.*[23]

~~4.9. Şirkətin strukturuna daxil olan qurumların rəhbərləri və onların müavinləri, habelə baş mühasibləri Şirkətin prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad olunurlar. Şirkətin digər işçilərinə münasibətdə işəgötürən funksiyalarının həyata keçirilməsi Şirkətin prezidenti tərəfindən müəyyən olunmuş qaydada təşkil olunan Kadrların İdarə Edilməsi Komitəsinə həvalə edilə bilər.~~[24]

4.10. Şirkətin strukturuna daxil olan qurumların*, törəmə və asılı təsərrüfat cəmiyyətlərinin* rəhbərləri və onların müavinləri həmin müəssisələrin qarşısında duran məqsəd, vəzifə və funksiyaların həyata keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.[25]

4.11. Şirkətin strukturuna daxil olan qurumların müvafiq olaraq blanklarında, möhür və ştamplarında, digər fərqləndirici nişanlarında həmin müəssisələrin adı ilə yanaşı. Şirkətin adı göstərilməlidir.

4.12. Şirkət və onun strukturuna daxil olan qurumları öz fəaliyyətində qanunla müəyyən edilmiş hallar istisna olunmaqla neft-qaz əməliyyatlarında ümumi qəbul edilmiş beynəlxalq maliyyə, kadr, təchizat və digər idarəetmə qaydaları və standartlarını tətbiq edir.[26]

4.13. Şirkətin strukturuna daxil olan qurumlar Şirkətin Nizamnaməsinə əməl etməli, öz fəaliyyəti barədə Şirkətə hesabat verməli, Şirkət tərəfindən təsdiq edilmiş *iş planları, habelə* gəlir və xərclər smetasının icrasını təmin etməli, Şirkət tərəfindən keçirilən tədbirlərdə və Şirkətin qarşısında duran vəzifələrin həllində iştirak etməli, qanunvericiliyə uyğun olaraq digər vəzifələri yerinə yetirməlidirlər.[27]

## [28] *V. Şirkətin idarə olunması*[29]

*5.1. Şirkət öz fəaliyyətində və idarəetmədə mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir. Şirkətin korporativ idarəetmə standartları AİH tərəfindən təsdiq olunur.*

*5.2. Şirkətin ali idarəetmə orqanı onun Ümumi Yığıncağıdır. Şirkətin idarəetmə orqanları Müşahidə Şurası və kollegial icra orqanı – İdarə Heyətidir.*

*5.3. Ümumi Yığıncağın müstəsna səlahiyyətləri "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin idarə edilməsinin təkmilləşdirilməsinə dair tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 yanvar tarixli 1258 nömrəli Sərəncamı ilə müəyyən edilir. Ümumi Yığıncağın müstəsna səlahiyyətlərinə aid edilməyən məsələlər barədə qərarlar nizamnaməsinə uyğun olaraq AİH tərəfindən qəbul olunur.*

*5.4. Şirkətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti Şirkətin Müşahidə Şurası (bundan sonra – Müşahidə Şurası) həyata keçirir. Müşahidə Şurası Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən 7 (yeddi) üzvdən ibarətdir. Şirkətin İdarə Heyətinin üzvləri Müşahidə Şurasına üzv təyin edilə bilməzlər. Müşahidə Şurası üzvlərinin səlahiyyət müddəti 3 (üç) ildir.*

*5.5. Müşahidə Şurasının vəzifələri aşağıdakılardır:*

*5.5.1. Şirkətin uzunmüddətli inkişaf strategiyasını təsdiq etmək;*

*5.5.2. Şirkətin İdarə Heyətinin fəaliyyətinə nəzarət etmək, AİH-nin təsdiq etdiyi qiymətləndirmə sisteminə uyğun olaraq İdarə Heyəti üzvlərinin fəaliyyətini qiymətləndirmək;*

*5.5.3. İdarə Heyəti üzvlərinin, habelə Azərbaycan Respublikasının qanunları ilə yol verilməyən hallar istisna olmaqla, Müşahidə Şurasının üzvlərinin mükafatlandırılması qaydasını müəyyən etmək;*

*5.5.4. Şirkətin korporativ strukturunun və ştat cədvəlinin təsdiq edilməsinə razılıq vermək, törəmə və asılı təsərrüfat cəmiyyətlərini yaratmaq, onların nizamnamələrini təsdiq etmək, rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad etmək;*

*5.5.5. Şirkətin Audit Komitəsini və digər komitələrini yaratmaq, onların əsasnamələrini təsdiq etmək, rəhbərlərini və üzvlərini vəzifəyə təyin və vəzifədən azad etmək;*

*5.5.6. Şirkətin risklərin idarə olunması, daxili audit və uyğunluğa nəzarət xidmətlərini yaratmaq, onların əsasnamələrini təsdiq etmək;*

*5.5.7. Şirkətin mərkəzləşdirilmiş fondlarını yaratmaq və onlardan istifadə qaydalarını müəyyən etmək;*

*5.5.8. Şirkətin fəaliyyətinin ayrı-ayrı sahələri üzrə siyasəti və daxili qaydaları (o cümlədən maraqlar münaqişəsinin istisna olunması qaydasını) təsdiq etmək;*

*5.5.9. Şirkətin illik səmərəlilik göstəriciləri üzrə hədəfləri, habelə likvidliyin hədəf göstəricilərini, maliyyə dayanıqlığının artırılmasına dair hədəf göstəricilərini, eləcə də ortamüddətli biznes planının əsas göstəricilərini təsdiq etmək;*

*5.5.10. Ümumi Yığıncağın səlahiyyətlərinə aid edilmiş hallar istisna olmaqla, Şirkətin investisiya layihələrini və onların*

*icrasına dair hesabatları, eləcə də Şirkətin inkişaf strategiyasının və biznes planının əsas göstəricilərinin icrasına dair hesabatı təsdiq etmək;*

*5.5.11. satınalmalarla bağlı Şirkətin strategiyasını və daxili normativ sənədlərini təsdiq etmək, fəaliyyət istiqamətlərinə uyğun olaraq dövlət vəsaiti (dövlət büdcəsi, dövlətin aldığı və dövlət zəmanəti ilə alınmış kreditlər və qrantlar) hesabına satınalmaları "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun, digər hallarda isə Şirkətin daxili normativ sənədlərinin tələblərinə uyğun olaraq həyata keçirmək;*

*5.5.12. Şirkətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən çox məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Şirkətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması ilə bağlı Ümumi Yığıncağa təkliflər vermək;*

*5.5.13. aidiyyəti şəxslərlə bağlanması nəzərdə tutulan və dəyəri Şirkətin aktivlərinin 5 (beş) faizinədək hissəsini təşkil edən əqdləri təsdiq etmək;*

*5.5.14. Şirkətin xərclər və gəlirlər smetasını təsdiq etmək və onun icrasına nəzarət etmək;*

*5.5.15. Şirkətin fəaliyyətinin müntəzəm monitorinqinə və qiymətləndirilməsinə imkan verən hesabatlılıq sistemini yaratmaq, normativ hüquqi aktlarda başqa qayda nəzərdə tutulmadığı halda, Şirkətin maliyyə və digər hesabatlarının formasını təsdiq etmək və təqdim edilməsi müddətlərini müəyyənləşdirmək;*

*5.5.16. Şirkətin fəaliyyət istiqamətinə aid məsələlərlə bağlı monitorinq aparmaq və onun nəticələrinə əsasən tədbirlər görmək;*

*5.5.17. Şirkətin müstəqil auditorunu müəyyən etmək, bununla bağlı müqavilənin bağlanmasına, onun dəyişdirilməsinə və ona xitam verilməsinə razılıq vermək;*

*5.5.18. Audit Komitəsinin, daxili audit bölməsinin və müstəqil auditorun yoxlamalarının nəticələrinə dair tədbirlər görmək;*

*5.5.19. mənfəətin və zərərin bölgüsünü, illik hesabatları və maliyyə hesabatlarını təsdiq üçün Ümumi Yığıncağa təqdim etmək;*

*5.5.20. mövcud normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, Şirkətin aktivlərinin idarəetməyə verilməsi və özəlləşdirilməsi ilə bağlı əqdlərin bağlanmasına razılıq vermək;*

*5.5.21. Şirkətin filial və nümayəndəliklərini yaratmaq, onların əsasnamələrini təsdiq etmək, rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad etmək;*

*5.5.22. bu Nizamnamə ilə və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə, habelə Müşahidə Şurası haqqında AİH-nin təsdiq etdiyi əsasnamə ilə Müşahidə Şurasının səlahiyyətlərinə aid edilmiş digər məsələləri həll etmək.*

*5.6. Müşahidə Şurası özünün səlahiyyətlərinə aid edilmiş məsələlərin həllini Şirkətin İdarə Heyətinə həvalə edə bilməz.*

*5.7. Şirkətin Müşahidə Şurasının üzvləri adlarına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidir, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər. Müşahidə Şurası üzvlərinin fəaliyyətinin qiymətləndirilməsi AİH-nin təsdiq etdiyi qiymətləndirmə sisteminə uyğun olaraq həyata keçirilir.*

*5.8. Müşahidə Şurasının sədri 3 (üç) ayda bir dəfədən az olmayaraq Müşahidə Şurasının iclasını çağırır və iclaslara sədrlik edir.*

*5.9. Müşahidə Şurasının iclaslarının keçirilməsi təşəbbüsü ilə Şirkətin Ümumi Yığıncağı, Müşahidə Şurasının üzvü və ya İdarə Heyətinin rəhbəri – Şirkətin prezidenti çıxış edir.*

*5.10. Müşahidə Şurasının iclasları onun üzvlərin bilavasitə iştirakı ilə əyani formada, informasiya texnologiyalarından istifadə etməklə distant formada, üzvlərin bilavasitə iştirakı olmadan qiyabi formada, yaxud qarışıq formada keçirilə bilər.*

*5.11. Müşahidə Şurasının iclasının gündəliyi iclasa ən azı 2 (iki) həftə qalmış korporativ katib vasitəsilə tövsiyələrin hazırlanması üçün AİH-yə göndərilir. AİH iclasa ən azı 1 (bir) həftə qalmış gündəliyə daxil edilmiş hər bir məsələyə dair tövsiyələrini hazırlayıb Müşahidə Şurasına göndərir.*

*5.12. Müşahidə Şurasının üzvlərinə, AİH-yə və iclasa dəvət olunmuş Şirkətin prezidentinə və digər şəxslərə iclasın keçiriləcəyi yer və vaxt (distant formada keçirilən iclaslara münasibətdə iclasın keçiriləcəyi vaxt), habelə AİH-nin tövsiyələri ilə birlikdə gündəliyə daxil edilmiş məsələlər barədə korporativ katib iclasa ən azı 1 (bir) həftə qalmış, zəruri sənədləri əlavə etməklə yazılı məlumat verir.*

*5.13. Müşahidə Şurasının əyani və distant formada keçirilən iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə, qiyabi formada keçirilən iclasları isə üzvlərin yarıdan çoxu səsvermə bülletenlərini imzaladıqda səlahiyyətlidir. Müşahidə Şurasının əyani və distant formada keçirilən iclaslarına Müşahidə Şurasının üzvü olmayan şəxslər də dəvət oluna bilərlər.*

*5.14. Müşahidə Şurasının iclaslarında qərarlar aşağıdakı qaydada qəbul olunur:*

*5.14.1. Müşahidə Şurasının əyani və distant formada keçirilən iclaslarında qərarlar açıq səsvermə yolu ilə, iclasda iştirak edən üzvlərin sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səs hüququna malikdir. Səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir;*

*5.14.2. Müşahidə Şurasının qiyabi formada keçirilən iclaslarında qərarlar üzvlər tərəfindən səsvermə bülletenlərinin imzalanması yolu ilə qəbul edilir;*

*5.14.3. Müşahidə Şurasının qarışıq formada keçirilən iclaslarında qərarlar bu Nizamnamənin 5.14.1-ci yarımbəndinə uyğun olaraq keçirilən səsvermə və bu Nizamnamənin 5.14.2-ci yarımbəndinə uyğun olaraq səsvermə bülletenlərini imzalamış üzvlərin səsi nəzərə alınmaqla qəbul edilir;*

*5.14.4. Müşahidə Şurasının üzvü iclasın gündəliyinə daxil edilmiş istənilən məsələ barədə Ümumi Yığıncaq tərəfindən qərar qəbul edilməsi tələbi ilə AİH-yə müraciət edə bilər. Müraciətlə bağlı AİH qərar qəbul edənədək, həmin məsələyə Müşahidə Şurası tərəfindən baxıla bilməz;*

*5.14.5. iclasın gündəliyinə Müşahidə Şurasının üzvlərinin (sədr də daxil olmaqla) maraqlarına toxunan məsələ çıxarıldıqda, həmin üzv bununla bağlı maraqları haqqında AİH-yə ətraflı yazılı məlumat verməli, bu məsələnin müzakirəsində və həmin məsələyə dair səsvermədə iştirak etməməlidir;*

*5.14.6. gündəliyə daxil edilməmiş və ya tələb olunan aidiyyəti sənədləri iclasdan qabaq təqdim edilməmiş məsələlər barədə, bütün iştirakçı üzvlərin razılığı olduğu hallar istisna olmaqla, qərar qəbul edilə bilməz.*

*5.15. Müşahidə Şurasının iclaslarının nəticələri Müşahidə Şurasının sədri və korporativ katib tərəfindən imzalanmaqla protokolla rəsmiləşdirilir. Protokolda iclasın yeri, vaxtı, keçirilmə forması, iştirak etmiş üzvlər barədə məlumat, iclasın gündəliyi, üzvlərin gündəliyə daxil edilmiş məsələlərə dair çıxışlarının xülasəsi, səsvermənin nəticələri və qəbul edilmiş qərarlar əks olunur.*

*5.16. Müşahidə Şurası bu Nizamnamənin 5.5.5-ci yarımbəndinə uyğun olaraq aşağıdakı komitələri yaradır:*

*5.16.1. Audit Komitəsi;*

*5.16.2. Təyinat və Mükafatlandırma Komitəsi;*

*5.16.3. Strategiya və İnvestisiyalar Komitəsi.*

*5.17. Korporativ katib AİH-nin təqdimatına əsasən Müşahidə Şurası tərəfindən Müşahidə Şurasının üzvü olmayan şəxslər sırasından vəzifəyə təyin və vəzifədən azad edilir və Müşahidə Şurasının sədrinə hesabat verir. Korporativ katib Müşahidə Şurasının iclasında iştirak edə bilmədikdə, Müşahidə Şurasının sədri onu əvəz edəcək şəxsi təyin edir.*

*5.18. Korporativ katib:*

*5.18.1. Müşahidə Şurasının iclaslarını təşkil edir;*

*5.18.2. bu Nizamnamənin 5.12-ci bəndində nəzərdə tutulmuş vəzifəni icra edir;*

*5.18.3. Müşahidə Şurasının iclasına aid materialları bu Nizamnamədə göstərilən qaydada və müddətdə AİH-yə və Müşahidə Şurasının üzvlərinə təqdim edir;*

*5.18.4. AİH ilə Müşahidə Şurasının üzvləri, eləcə də İdarə Heyəti arasında sənəd və məlumat mübadiləsini həyata keçirir;*

*5.18.5. Müşahidə Şurasının qərarlarının layihələrini hazırlayır, baxılması və imzalanması üçün Müşahidə Şurasının sədrinə təqdim edir;*

*5.18.6. Müşahidə Şurasının iclaslarının protokolunu tərtib edir və imzalanmaq üçün Müşahidə Şurasının sədrinə təqdim edir.*

*5.18.7. Müşahidə Şurasının qəbul etdiyi qərarların aidiyyəti üzrə göndərilməsini təmin edir.*

*5.19. Şirkətin fəaliyyətinə cari rəhbərliyi Şirkətin İdarə Heyəti həyata keçirir. Şirkətin İdarə Heyəti Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi 14 (on dörd) üzvdən – Şirkətin prezidentindən, Şirkətin birinci vitse-prezidentindən və 12 (on iki) vitse-prezidentdən ibarətdir.*[30]

*5.20. Şirkətin İdarə Heyətinin vəzifələri aşağıdakılardır:*

*5.20.1. Şirkətin strukturuna daxil olan qurumların fəaliyyətinə dair illik iş planlarını və onların icra vəziyyətinə dair hesabatları təsdiq etmək;*

*5.20.2. Şirkətin mərkəzləşdirilmiş fondlarının yaradılmasına və istifadəsinə dair Müşahidə Şurasına təkliflər vermək;*

*5.20.3. Şirkətin strukturuna daxil olan qurumlar arasında qarşılıqlı münasibətlərin, məhsul, xidmət və işlərin qiymətlərini müəyyən etmək;*

*5.20.4. Şirkətin strukturuna daxil olan qurumların istehsal və təsərrüfat funksiyalarının tam və ya qismən mərkəzləşdirilməsinə dair qərar qəbul etmək;*

*5.20.5. Şirkətin xarici dövlətlərin aidiyyəti qurumları ilə birgə işinin məqsədəuyğunluğu barədə qərar qəbul etmək;*

*5.20.6. Şirkətin strukturuna daxil olan qurumlar arasında mübahisələrin həlli üçün tədbirlər görmək;*

*5.20.7. bu Nizamnamə ilə Ümumi Yığıncağın və Müşahidə Şurasının səlahiyyətlərinə aid edilməyən digər məsələləri həll etmək.*

*5.21. İdarə Heyətinin rəhbəri ayda 1 (bir) dəfədən az olmayaraq İdarə Heyətinin iclaslarını çağırır və iclaslara sədrlik edir. İdarə Heyətinin iclaslarının keçirilməsi təşəbbüsü ilə İdarə Heyətinin üzvləri və Müşahidə Şurası çıxış edir. İdarə Heyətinin iclasında hər bir üzvün bir səsi olmaqla qərarlar sadə səs çoxluğu ilə qəbul edilir, səslər bərabər olduqda, iclasa sədrlik edənin səsi həlledicidir.*

*5.22. İdarə Heyətinin iclaslarına münasibətdə bu Nizamnamənin 5.14.4 – 5.14.6-cı yarımbəndlərində nəzərdə tutulmuş müddəalar tətbiq edilir. İdarə Heyətinin iclasları bu Nizamnamənin 5.15-ci bəndinə uyğun olaraq protokollaşdırılır.*

*5.23. Şirkətin prezidenti:*

*5.23.1. Şirkətin işini təşkil edir və onun cari fəaliyyətinə rəhbərlik edir;*

*5.23.2. bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi məqsədilə Müşahidə Şurasına təkliflər verir və sənədlər (o cümlədən Şirkətin illik və rüblük hesabatlarını, habelə strateji planlarının icrası barədə hesabatları) təqdim edir;*

*5.23.3. Şirkətin korporativ strukturunu və ştat cədvəlini Müşahidə Şurası ilə razılaşdırmaqla təsdiq edir;*

*5.23.4. Şirkətin qarşısında duran vəzifələrin yerinə yetirilməsini təmin edir;*

*5.23.5. Şirkətin Baş Ofisinin və Şirkətin strukturuna daxil olan qurumların səmərəli fəaliyyət göstərməsi üçün tədbirlər görür;*

*5.23.6. Ümumi Yığıncağın və Müşahidə Şurasının qərarlarının icrasını təmin edir;*

*5.23.7. Şirkətin Baş Ofisinin struktur bölmələrinin əsasnamələrini təsdiq edir, bu Nizamnamə ilə müəyyən edilmiş hallar istisna olmaqla, Şirkətin Baş Ofisinin işçilərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə qərarlar qəbul edir;*

*5.23.8. dövlət orqanları (qurumları) və yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə münasibətdə Şirkəti təmsil edir;*

*5.23.9. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində Şirkətin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;*

*5.23.10. Şirkətin əmlakından bu Nizamnamə ilə müəyyən edilmiş məqsədlərə uyğun istifadə edir, Şirkətin balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirir;*

*5.23.11. Şirkətin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncamlar və əmrlər verir;*

*5.23.12. Müşahidə Şurası ilə razılaşdırmaqla, Şirkətin törəmə və asılı təsərrüfat cəmiyyətlərinin, həmçinin onun strukturuna daxil olan qurumların rəhbərlərinin müavinlərini vəzifəyə təyin və vəzifədən azad edir;*

*5.23.13. aidiyyəti şəxslərlə Şirkətin aktivlərinin 5 (beş) faizinədək hissəsini təşkil edən əqdlərin təsdiqinə dair Müşahidə Şurasına təkliflər verir;*

*5.23.14. Ümumi Yığıncağın və Müşahidə Şurasının səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar qəbul edir.*

*5.24. Şirkətin prezidenti müvəqqəti olmadıqda, onun səlahiyyətlərini müvafiq əmrlə İdarə Heyətinin üzvlərindən biri icra edir.*

*5.25. Şirkətin İdarə Heyətinin üzvləri eyni zamanda Şirkətin strukturuna daxil olan müvafiq qurumun rəhbəri vəzifəsini tuta bilərlər.*

*5.26. Şirkətin İdarə Heyətinin üzvləri adlarına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməlidir, həmçinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-cu maddəsində müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.*

## VI. Şirkətdə uçot, hesabat və nəzarət

6.1. Şirkət "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mühasibat uçotu aparır, illik maliyyə hesabatlarını, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq vergi hesabatlarını və "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir. Şirkət maliyyə-təsərrüfat fəaliyyəti haqqında digər hesabat və məlumatları qanunla müəyyən edilmiş hallarda tərtib edir və müvafiq orqanlara

təqdim olunmasını təmin edir. [31]

6.1-1. Şirkət birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə hesabat dövrü başa çatdıqdan sonra növbəti il iyun ayının 30-dan gec olmayaraq internet səhifəsində və dövri mətbu nəşrdə dərc etdirir, hesabat dövrü ərzində şirkət və ya onun törəmə cəmiyyətləri dövlət zəmanəti ilə kredit aldıqda və ya dövlət borcunun xərclənməsi ilə bağlı layihələrdə iştirak etdikdə, həmçinin onlara büdcədən subsidiya, subvensiya, qrant və ya müəyyən səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı büdcə vəsaiti ayrıldıqda isə eyni zamanda, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edir. [32]

6.2. Şirkətin fəaliyyətinə nəzarət qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq orqanlar tərəfindən həyata keçirilir. [33]

*6.3. Şirkətin Şurasının üzvləri, habelə komitələrinin və Şirkətin strukturuna daxil olan qurumların rəhbərləri özlərinin birbaşa və ya dolayısı ilə iştirak etdiyi hüquqi şəxslərin, habelə qohumlarının (ərinin (arvadının), valideynlərinin, o cümlədən ərinin (arvadının) valideynlərinin, babalarının və nənələrinin, övladlarının, övladlığa götürənlərinin və ya götürülənlərinin, qardaşlarının və bacılarının) bağlanılan əqdə münasibətdə aidiyyəti şəxs qismində çıxış etmələri, həmçinin həmin əqdlə əlaqədar öz maraqlarının xüsusiyyətləri (onun yaranması, həcmi və s.) barədə məlumatı Şirkətin Şurasına yazılı şəkildə təqdim etməlidirlər.* [34]

## VII. Şirkətin yenidən təşkili və ləğv edilməsi

7.1. Şirkət Azərbaycan Respublikasının Prezidenti tərəfindən yenidən təşkil oluna və ya ləğv edilə bilər.

ƏLAVƏ 2

Azərbaycan Respublikası Prezidentinin
2003-cü il 24 yanvar tarixli 844 nömrəli fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

## Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin
## STRUKTURU [35]

~~**I. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin İdarəetmə Strukturu:**~~

~~1. Rəhbərlik:~~ [36]
~~1.1. Prezident~~
~~1.2. Birinci vitse-prezident~~
~~1.3. *Birinci vitse-prezident*~~ ~~[37]~~
~~1.4. Vitse-prezident — iqtisadi məsələlər üzrə~~
~~1.5. Vitse-prezident — emal üzrə~~
~~1.6. Vitse-prezident — sərmayələr və marketinq üzrə~~
~~1.7. Vitse-prezident - sosial məsələlər üzrə~~
~~1.8. Vitse-prezident - ekologiya üzrə~~
~~1.9 Vitse-prezident - kadr, rejim və informasiya texnologiyaları üzrə~~
~~1.10. Vitse-prezident — strateji inkişaf üzrə~~
~~1.11. *Vitse-prezident - neftin, qazın nəqli və qaz təsərrüfatı məsələləri üzrə*~~; ~~[38]~~
~~1.12. *Vitse-prezident - geologiya və geofizika məsələləri üzrə*~~ [39]
~~*1.13. Vitse-prezident - yataqların işlənməsi üzrə*~~;
~~*1.14. Vitse-prezident*~~ ~~[40]~~
~~2. Şirkətin Şurası.~~
3. Audit Komitəsi.
*3-1. Təyinat və Mükafatlandırma Komitəsi;* [41]
*3-2. Strategiya və İnvestisiyalar Komitəsi.*
4. Risklərin İdarə edilməsi Komitəsi.
5. Satınalmalar Komitəsi.
6. Kadrların İdarə Edilməsi Komitəsi.
7. İnformasiya Təhlükəsizliyi Komitəsi. [42]
8. Baş ofis.
9. Filiallar, nümayəndəliklər və hüquqi şəxs statusuna malik olmayan təşkilatlar (İdarələr).
10. Ortaq Neft Şirkətləri və Şirkət tərəfindən yaradılan təsisatlar (törəmə və asılı *təsərrüfat cəmiyyətləri*). [43]
11. Şirkətin strukturuna daxil olan müəssisələr. [44]
11.1. "Azneft" İstehsalat Birliyi; [45]
11.2. “Azəriqaz” İstehsalat Birliyi;
11.3. "Azərikimya" İstehsalat Birliyi; [46]
11.4. Geofizika və geologiya İdarəsi; [47]
11.5. "Neft kəmərləri" İdarəsi;
11.6. "Marketinq və iqtisadi əməliyyatlar" İdarəsi;
11.7. "Sərmayələr" İdarəsi; [48]
11.8. "Azərneftyağ" neft emalı zavodu;

11.9. "Heydər Əliyev adına Neft Emalı Zavodu;[49]
11.10. Bakı dərin özüllər zavodu;
11.11. Qaz emalı zavodu;[50]
11.12. Karbamid zavodu;[51]
11.13. Sosial İnkişaf İdarəsi;
11.14. Təhlükəsizlik İdarəsi;[52]
11.15. “Ekologiya” İdarəsi;
11.16. “Qaz ixrac” İdarəsi ;[53]
11.17. “İnformasiya Texnologiyaları və Rabitə” İdarəsi;[54]
~~11.18. “Xəzər Dəniz Neft Donanması”;~~[55]
11.19. "Neftqaztikinti" tresti;
11.20. "Kompleks qazma işləri" tresti;
11.21. “Neftqazelmitədqiqatlayihə” institutu;[56]
11.22. Bakı Ali Neft Məktəbi;[57]
11.23. Neft-qaz emalı və neft-kimya kompleksi;
11.24. Nəqliyyat İdarəsi;
11.25. Dalğıc və Qəza-Xilasetmə İşləri İdarəsi.[58]
*11.26. Metanol zavodu;*
*11.27. Bakı Olimpiya Stadionu.*[59]
~~18. “Neftqazlayihə” institutu”~~ [60]

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 18 sentyabr 2004-cü il tarixli 127 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 9, maddə 681** )
2. 23 fevral 2005-ci il tarixli 198 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 2, maddə 73** )
3. 22 dekabr 2006-cı il tarixli 340 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1109**)
4. 6 iyul 2006-cı il tarixli 426 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 7, maddə 590**)
5. 14 sentyabr 2006-cı il tarixli 458 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 9, maddə 736** )
6. 7 mart 2007-ci il tarixli 539 nömrəli Azərbaycan Respublikasının Fərmanı ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 3, maddə 219**)
7. 27 dekabr 2007-ci il tarixli 694 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 12, maddə 1244**)
8. 20 iyul 2009-cu il tarixli 126 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti 21 iyul 2009-cu il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 529)**
9. 7 oktyabr 2009-cu il tarixli 164 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərman (**“Azərbaycan” qəzeti 8 oktyabr 2009-cu il, 223, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 10, maddə 777)**
10. 22 aprel 2010-cu il tarixli 258 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 04, maddə 298)**
11. 2 iyul 2010-cu il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti 4 iyul 2010-cu il, 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 7, maddə 610)**
12. 1 sentyabr 2011-ci il tarixli **495** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 09, maddə 789)**
13. 29 noyabr 2011-ci il tarixli **539** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 30 noyabr 2011-ci il, 264; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 11, maddə 1011)**
14. 24 fevral 2014-cü il tarixli **112** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 119)**
15. 22 dekabr 2014-cü il tarixli **428** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 25 dekabr 2014-cü il, 283, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 12, maddə 1582)**
16. 22 dekabr 2014-cü il tarixli **430** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 25 dekabr 2014-cü il, 283, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 12, maddə 1584)**
17. 26 fevral 2016-cı il tarixli **804** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 6 mart 2016-cı il, 52 ; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 02, II kitab, maddə 268)**
18. 17 mart 2016-cı il tarixli **851** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 03, maddə 472)**
19. 4 oktyabr 2017-ci il tarixli **1613** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 10, maddə 1780**)
20. 5 iyul 2018-ci il tarixli **167** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1453**)
21. 16 may 2019-cu il tarixli **695** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 18 may 2019-cu il, 108, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 847)**
22. 8 may 2021-ci il tarixli **1334** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 9 may 2021-ci il, 98 , Azərbaycan**

**Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 5 maddə 441)**

**23.** [11 avqust 2021-ci il tarixli **1421** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 12 avqust 2021-ci il, 167)**

**FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 6 iyul 2006-cı il tarixli 426 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 7, maddə 590**) ilə “Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturunun təkmilləşdirilməsi haqqında” Fərmanın preambulasının səkkizinci abzasında “**İqtisadi İnkişaf Nazirliyi**” sözləri “**Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi** ” sözləri ilə əvəz edilmişdir.

[2] 6 iyul 2006-cı il tarixli 426 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 7, maddə 590**) ilə “Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturunun təkmilləşdirilməsi haqqında” Fərmanın 5-ci bəndində **“İqtisadi İnkişaf Nazirliyi”** sözləri **“Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi”** sözləri ilə əvəz edilmişdir.

2 iyul 2010-cu il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 4 iyul 2010-cu il, 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 7, maddə 610)** ilə preambulasının səkkizinci abzasında və 5-ci bəndində ismin müvafiq hallarında "**Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi** " sözləri ismin müvafiq hallarında "**Əmlak Məsələləri Dövlət Komitəsi**" sözləri ilə əvəz edilmişdir.

**[3]** 22 aprel 2010-cu il tarixli 258 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 04, maddə 298) ilə** "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin 1.1-ci bənddə və 1.2-ci bəndin ikinci cümləsində "**neft**" sözlərindən sonra "**, neft-kimya**" sözləri əlavə edilmişdir.

**[4]** 20 iyul 2009-cu il tarixli 126 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 21 iyul 2009-cu il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 529)** ilə 1.4-cü bəndin ikinci cümləsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Şirkət müstəqil balansla yanaşı, onun tərkibinə daxil olan müəssisələr, digər hüquqi şəxslər və hüquqi şəxs olmayan (nümayəndəliklər, filiallar və sair) qurumlar (bundan sonra mətndə müəssisələr adlandırılacaq) üzrə icmal (konsolidə) edilmiş hesabatı (balans da daxil olmaqla) tərtib edir.~~

[22 dekabr 2014-cü il tarixli **428** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 25 dekabr 2014-cü il, 283, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 12, maddə 1582** ) ilə “Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin Nizamnaməsi”nin 1.4-cü bəndin ikinci cümləsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Şirkət müstəqil balansla yanaşı icmal (konsolidə) edilmiş hesabatları tərtib edir.~~

**[5]** 20 iyul 2009-cu il tarixli 126 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 21 iyul 2009-cu il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 529)** ilə 1.5-ci bənddə **“blanklara”** sözündən sonra **“loqotipə, emblemə və”** sözləri əlavə edilmişdir.

**[6]** 20 iyul 2009-cu il tarixli 126 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 21 iyul 2009-cu il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 529)** ilə 1.7-ci bəndin birinci cümləsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Şirkət öhdəliklərinə görə onun sərəncamında olan əmlaka cavabdehdir.~~

**[7]** [22 dekabr 2014-cü il tarixli **430** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 25 dekabr 2014-cü il, 283, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 12, maddə 1584)** ilə “Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi”nin 1.8-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyadad deyilirdi:

~~1.8. Şirkətin Azərbaycan dilində tam rəsmi adı - Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, Şirkətin Azərbaycan dilində qısaldılmış rəsmi adı - ARDNŞ.~~

**[8]** 20 iyul 2009-cu il tarixli 126 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 21 iyul 2009-cu il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 529)** ilə 1.9-cu bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~1.9. Şirkət Bakı şəhərində yerləşir.~~

**[9]** [16 may 2019-cu il tarixli **695** nömrəli] Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 18 may 2019-cu il, 108, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 847)** ilə “Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi”nin 2.3-cü bəndinin iyirminci abzasında “**ilk peşə-ixtisas**” sözləri “**peşə**” sözü ilə əvəz edilmişdir.

[10] 20 iyul 2009-cu il tarixli 126 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 21 iyul 2009-cu il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 529)** ilə 2.3-cü bənddə beşinci abzasda **“tərkibinə daxil olan müəssisələrin”** sözləri **“strukturuna daxil olan hüquqi şəxslər və hüquqi şəxs olmayan (nümayəndəliklər, filiallar və sair) qurumlar (bundan sonra – strukturuna daxil olan qurumlar)”** sözləri ilə əvəz edilmişdir.

20 iyul 2009-cu il tarixli 126 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 21 iyul 2009-cu il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 529)** ilə 2.3-cü bənddə on beşinci abzasda **“nəql haqqının”** sözləri **“nəql xərclərinin”** sözləri ilə əvəz edilmişdir.

20 iyul 2009-cu il tarixli 126 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 21 iyul 2009-cu il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 529)** ilə 2.3-cü bənddə on doqquzuncu **abzasda “xarici şirkətlərin müştərək fəaliyyətə cəlb edilməsini”** sözləri **“hüquqi və fiziki şəxslərlə hüquqi şəxs yaratmaqla və ya hüquqi şəxs yaratmadan birgə layihələrin həyata keçirilməsi və layihələrin təsis sənədlərinə uyğun olaraq onların idarə olunmasında iştirak edilməsi”** sözləri ilə əvəz edilmişdir.

22 aprel 2010-cu il tarixli 258 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik**

**Toplusu, 2010-cu il, 04, maddə 298) ilə** "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin II bölmə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~II. Şİrkətİn məqsədİ, vəzİfələrİ və fəalİyyətİnİn predmetİ~~

~~2.1. Şirkətin əsas məqsədi Azərbaycan Respublikası ərazisində, quru və dəniz sahələri də daxil olmaqla, neft və qaz yataqlarının axtarışının, kəşfiyyatının, hazırlanmasının, işlənməsinin, neftin, qazın, kondensatın və onlardan alınan məhsulların nəql edilməsinin, emalının paylanmasının və satışının, istehlakçıların müvafiq enerji daşıyıcılarına olan tələbatının sabit və dayanıqlı ödənilməsinin, digər işlərin və xidmətlərin həyata keçirilməsindən və gəlir əldə edilməsindən ibarətdir.~~

~~2.2. Bu Nizamnamənin 2.1-ci bəndində göstərilən məqsədlərə nail olmaq üçün Şirkət:~~

~~neft, qaz və kondensatın hasilatını, nəqli və emalı sistemlərinin etibarlı və səmərəli fəaliyyət göstərməsini;~~

~~xam neftin, təbii qazın və onların emalı nəticəsində alınan məhsulların daxili və xarici bazarlarda satışını;~~

~~ölkə iqtisadiyyatının və əhalinin neftə, qaza, kondensata, onların emalından alınan və müasir istehlak tələblərinə cavab verən digər məhsullara, habelə müvafiq işlərə və xidmətlərə olan tələbatının ödənilməsini;~~

~~ətraf mühitin qorunmasına yönəldilmiş tədbirlərin işlənilməsini və realizə edilməsini;~~

~~enerjiyə qənaət edən texnologiyadan və texnikadan, habelə ekoloji cəhətdən təmiz texnologiyalardan istifadəsini təmin edir.~~

~~2.3. Şirkət onun əsas vəzifələrini yerinə yetirmək üçün qanunvericiliklə müəyyən edilmiş qaydada aşağıdakı fəaliyyət növlərini həyata keçirir:~~

~~sahənin inkişafına dair uzunmüddətli proqnozların, məqsədli kompleks elmi-texniki, iqtisadi və sosial proqramların işlənib hazırlanmasını;~~

~~istehsalın səmərəliliyinin yüksəldilməsini, enerjiyə və material ehtiyatlarına qənaət siyasətinin həyata keçirilməsini, sahə müəssisələri arasında əlverişli istehsal-texnoloji və təsərrüfat əlaqələrinin yaradılmasını;~~

~~sahənin perspektiv inkişafının müəyyən edilməsində Şirkətlə müvafiq səlahiyyətli dövlət hakimiyyəti orqanları arasında qarşılıqlı əlaqələrin təmin edilməsini;~~

~~sahənin istehsal və sosial bazasının inkişafını, Şirkətin strukturuna daxil olan hüquqi şəxslər və hüquqi şəxs olmayan (nümayəndəliklər, filiallar və sair) qurumlar (bundan sonra – strukturuna daxil olan qurumlar) modernləşdirilməsi, genişləndirilməsi, yenidən qurulması, onların yeni texnika və texnologiyalarla təchiz edilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada investisiya fəaliyyətini;~~

~~müasir tikinti texnologiyasından və texniki vasitələrdən istifadə edilməklə geoloji-kəşfiyyat işlərinin aparılmasını, yataqların istismarının səmərəliliyinin yüksəldilməsini, neft və qaz buruqlarının tikintisinin sürətləndirilməsini, həmçinin, yerin təkindən istifadə edilməsi və ətraf mühitin mühafizəsi sahəsində mövcud olan qanunvericiliyə riayət etməklə yataqların istismara hazırlanmasının keyfiyyətinin və sürətinin artırılmasını;~~

~~təsərrüfatçılıq üsullarının və formalarının təkmilləşdirilməsini, elmi nailiyyətlərin istehsalatda tətbiq edilməsini;~~

~~iqtisadi və istehsal-texniki proqramların həyata keçirilməsi üçün bankların, o cümlədən xarici bankların və digər mənbələrdən kredit vəsaitlərinin cəlb olunmasını;~~

~~kadr siyasətinin həyata keçirilməsini, respublikada və xaricdə kadrların hazırlanmasının və ixtisasının artırılmasının təşkilini;~~

~~sosial sahənin maddi bazasının möhkəmləndirilməsi hesabına müəssisə kollektivlərinin sosial inkişafı üçün əlverişli imkanlar yaradılmasını;~~

~~dövlət orqanları, xarici şirkətlər və sahibkarlarla qarşılıqlı əlaqəli fəaliyyət göstərilməsini;~~

~~geofiziki, geoloji axtarış-kəşfiyyat işlərinin əsas istiqamətlərinin işlənib hazırlanmasının və müvafiq qaydada təsdiq edilməsinin təmin edilməsini;~~

~~yeni kəşf olunmuş yataqların işlənməyə verilməsi haqqında qərarların qəbul edilməsini, müəssisələr tərəfindən istismar olunan yataqların təcrübə-sənaye istismar layihələrinin, texnoloji sxemlərinin, neft, qaz və qaz kondensatlı yataqların işlənməsi layihələrinin hazırlanmasını və müvafiq qaydada təsdiq edilməsini;~~

~~neft və qazçıxarma müəssisələrinin illik iş proqramlarının təsdiq edilməsini və bu proqramlara uyğun olaraq onların illik büdcə vəsaitlərinin müəyyənləşdirilməsini;~~

~~hasil edilmiş xam neftin və təbii qazın nəqlinin təşkil edilməsini və xidmətə görə nəql müəssisələrinə müəyyən edilmiş nəql xərclərinin ödənilməsini;~~

~~xam neftin və təbii qazın emalının təşkil edilməsini, neft və qaz emal müəssisələrinə Şirkət tərəfindən göstərilən xidmətlərə görə müəyyən edilmiş emal xərclərinin ödənilməsini;~~

~~xam neft, təbii qaz, neft və qaz məhsullarının satışının təşkil edilməsini və onların təchizat xərclərinin müvafiq qaydada ödənilməsini;~~

~~torpaqların rekultivasiyası və ətraf mühitin mühafizəsi üçün lazımi tədbirlərin görülməsini;~~

~~qanunvericiliklə müəyyən edilmiş qaydada xarici iqtisadi əlaqələrin həyata keçirilməsini (o cümlədən, beynəlxalq əməkdaşlığın inkişafını və sahəyə xarici sərmayələrin cəlb edilməsini təmin edən tədbirlərin həyata keçirilməsini; qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada Şirkətin fəaliyyətinə aid müvafiq sazişlərin layihələrinin hazırlanmasını, bu sazişlər üzrə danışıqların aparılmasını (və ya danışıqların aparılmasında iştirak edilməsini), müəyyən edildikdə onların imzalanması və icrasına nəzarətin təmin edilməsini, habelə digər məsələlərin həyata keçirilməsini; qanunvericiliklə müəyyən edilmiş qaydada xaricdə nümayəndəliklərin və filialların açılmasını, hüquqi şəxslərin yaradılmasını qanunvericiliklə müəyyən edilmiş qaydada Şirkətin istehsal etdiyi məhsulların xaricə satışının təşkil edilməsini və istehsal-təsərrüfat ehtiyaclarını təmin etmək üçün malların (işlərin, xidmətlərin) satınalınması üzrə əməliyyatların həyata keçirilməsini; hüquqi və fiziki şəxslərlə hüquqi şəxs yaratmaqla və ya hüquqi şəxs yaratmadan birgə layihələrin həyata keçirilməsi və layihələrin təsis sənədlərinə uyğun olaraq onların idarə olunmasında iştirak edilməsi; xarici şirkətlərin iştirakı ilə Azərbaycan Respublikasında və eləcə də xaricdə tikiləcək obyektlərin layihə və smeta sənədlərinin ekspertizasının həyata keçirilməsini; beynəlxalq konqres, simpozium və digər toplantılarda iştirak edilməsini və Şirkətin xaricdə yaratdığı qurumlarda işləmək üçün mütəxəssislərin ezam edilməsini; Şirkətin müəssisələrində xarici iqtisadi əlaqələrə aid bütün məsələlərin təşkilinin, baxılmasının və həllinin mərkəzləşdirilmiş qaydada həyata keçirilməsini);~~

~~qanunvericiliyə əsasən neft və qaz sənayesi sahəsində digər fəaliyyət növlərinin həyata keçirilməsini.~~

~~[11]~~ ~~20 iyul 2009-cu il tarixli **126** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 21 iyul 2009-cu il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 529)** ilə III bölmənin adı yeni redaksiyada verilmişdir.~~

~~əvvəlki redaksiyada deyilirdi:~~

~~**III. ŞİRKƏTİN ƏMLAKI VƏ GƏLİRİ**~~

[12] 20 iyul 2009-cu il tarixli 126 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 21 iyul 2009-cu il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 529)** ilə 3.1-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~3.1. Şirkətin və onun tərkibinə daxil olan müəssisələrin əmlakı dövlət mülkiyyətindədir. Şirkət onda olan dövlət əmlakına münasibətdə qanunvericiliklə müəyyən edilmiş qaydada və hədlərdə sahibliyi, istifadəni və sərəncam verilməsini həyata keçirir.~~

22 dekabr 2014-cü il tarixli **430** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 25 dekabr 2014-cü il, 283, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 12, maddə 1584 )** ilə “Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi”nin 3.1-ci bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~3.1. Şirkətin Nizamnamə kapitalı 600.000.000 manat təşkil edir və dövlətə məxsusdur~~.

-

4 oktyabr 2017-ci il tarixli **1613** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik**

**Toplusu, 2017-ci il, 10, maddə 1780**) ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin 3.1-ci bəndində "**1,528,000,000 (bir milyard beş yüz iyirmi səkkiz milyon)**" rəqəm və sözləri "**1,628,000,000 (bir milyard altı yüz iyirmi səkkiz milyon)**" rəqəm və sözləri ilə əvəz edilmişdir.

[13] 20 iyul 2009-cu il tarixli 126 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 21 iyul 2009-cu il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 529**) ilə 3.2-ci bəndə yeni məzmunda üçüncü cümlə əlavə edilmişdir.

[14] 20 iyul 2009-cu il tarixli 126 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 21 iyul 2009-cu il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 529**) ilə 3.3-cü bəndin ikinci abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~mülkiyyətçi və ya mülkiyyətçi tərəfindən səlahiyyətləndirilmiş orqan tərəfindən verilən əmlak;~~

[15] 22 aprel 2010-cu il tarixli 258 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 04, maddə 298**) **ilə** "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin 3.4-cü bənddə "**müəssisələrinin**" sözü "**strukturuna daxil olan qurumların**" sözləri ilə əvəz edilmişdir

[16] 20 iyul 2009-cu il tarixli 126 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 21 iyul 2009-cu il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 529**) ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin 3.4-cü və 4.1-ci bəndləri yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~3.4. Şirkət qanunvericiliklə nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri müəyyən edilmiş qaydada ödədikdən sonra, fəaliyyətindən əldə etdiyi gəlirə müstəqil sərəncam verir.~~

~~4.1. Şirkətin strukturu – onun idarəetmə strukturu və tərkibinə daxil olan müəssisələrin siyahısı Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir.~~

-

26 fevral 2016-cı il tarixli **804** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 6 mart 2016-cı il, 52 ; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 02, II kitab, maddə 268**) ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin 4.1-ci bəndə "**Şirkətin**" sözündən sonra "**Nizamnaməsi, Nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi,**" sözləri əlavə edilmişdir.

-

8 may 2021-ci il tarixli **1334** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 9 may 2021-ci il, 98, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 5 maddə 441**) ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin 4.1-ci bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~4.1. Şirkətin *Nizamnaməsi, Nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi,* strukturu Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir.~~

-

[17] 20 iyul 2009-cu il tarixli 126 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 21 iyul 2009-cu il, 157**) ilə 4.2-ci bənddə **"idarəetmə strukturu"** sözləri **"rəhbərliyi"** sözü ilə əvəz edilmişdir.

8 may 2021-ci il tarixli **1334** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 9 may 2021-ci il, 98, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 5 maddə 441**) ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin 4.2-ci, 4.7-ci və 4.9-cu bəndləri ləğv edilmişdir.

[18] 20 iyul 2009-cu il tarixli 126 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 21 iyul 2009-cu il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 529**) ilə 2.1-ci və 4.3-cü bəndlərdə ismin müvafiq hallarında **"emalı"** sözündən sonra ismin müvafiq hallarında **"paylanması"** sözü əlavə edilmişdir və 4.3-cü bənddə **"tərkibinə daxil olan müəssisələr, habelə Şirkət tərəfindən bu Nizamnaməyə uyğun olaraq yaradılan hüquqi şəxslər və hüquqi şəxs statusuna malik olmayan"** sözləri **"strukturuna daxil olan"** sözləri ilə əvəz edilmişdir.

22 aprel 2010-cu il tarixli 258 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 04, maddə 298**) **ilə** "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin 4.3-cü bənddə "**və onlardan alınan məhsulların**" sözləri "**, eləcə də neft, neft-kimya və qaz məhsullarının** " sözləri ilə əvəz edilmişdir.

8 may 2021-ci il tarixli **1334** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 9 may 2021-ci il, 98, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 5 maddə 441**) ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin 4.3-cü bəndində birinci halda "**Şirkətin**" sözü "**Şirkət**" sözü ilə əvəz edilmişdir.

[19] 20 iyul 2009-cu il tarixli 126 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 21 iyul 2009-cu il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 529**) ilə 4.4-cü bənddə **"(Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən siyahıya əsasən müəyyən edilmiş müəssisələr istisna olmaqla)"** sözləri çıxarılsın və **"qanunvericiliklə müəyyən edilmiş qaydada"** sözləri **"struktura uyğun olaraq müəyyən edilmiş qaydada"** sözləri ilə əvəz edilmişdir.

22 aprel 2010-cu il tarixli 258 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 04, maddə 298**) **ilə** "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin 4.4-cü bənddən "**hüquqi şəxslər və hüquqi şəxs statusuna malik olmayan qurumlar**" sözləri çıxarılmışdır.

8 may 2021-ci il tarixli **1334** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 9 may 2021-ci il, 98, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 5 maddə 441**) ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin 4.4-cü bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~4.4. Şirkətin strukturuna daxil olan qurumlar (Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən siyahıya əsasən müəyyən edilmiş müəssisələr istisna olmaqla) hüquqi şəxslər və hüquqi şəxs statusuna malik olmayan qurumlar Şirkətin prezidenti tərəfindən struktura uyğun olaraq müəyyən edilmiş qaydada yaradılır, yenidən təşkil edilir və ləğv edilir.~~

-

[20] 8 may 2021-ci il tarixli **1334** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 9 may 2021-ci il, 98, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 5 maddə 441**) ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin 4.5-ci

bəndində “**Şirkət tərəfindən yaradılan müəssisələr, təşkilatlar və digər təsisatlar**” sözləri “**Şirkətin strukturuna daxil olan qurumlar**” sözləri ilə əvəz edilmişdir və həmin bəndə “**aparılması**” sözündən sonra “**Azərbaycan Respublikasının qanunları və bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları, bu Nizamnamə və AİH-nin müəyyən etdiyi qaydalar və ya AİH-nin razılığı ilə**” sözləri əlavə edilmişdir.

-

[21] 8 may 2021-ci il tarixli 1334 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 9 may 2021-ci il, 98, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 5 maddə 441**) ilə “Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi”nin 4.6-cı bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~4.6. Şirkət onun fəaliyyətinin predmetinə daxil olan bəzi fəaliyyət növlərinin həyata keçirilməsini tam və ya qismən onun strukturuna daxil olan müəssisələrə həvalə edə bilər.~~

-

[22] 22 aprel 2010-cu il tarixli 258 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 04, maddə 298**) **ilə** "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin 4.7-ci bənddə "**müəssisələrin**" sözü "**qurumlarının və səlahiyyətli idarəetmə orqanlarının (Şirkətin Şurası və komitələrinin)**" sözləri ilə əvəz edilmişdir.

[23] 8 may 2021-ci il tarixli 1334 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 9 may 2021-ci il, 98, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 5 maddə 441**) ilə “Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi”nin 4.8-ci bəndində “**bilavasitə Şirkət iştirak edə bilər**” sözləri “**Şirkətin bilavasitə iştirakı ilə bağlı qərarları Şirkətin Müşahidə Şurası qəbul edir** ” sözləri ilə əvəz edilmişdir.

-

[24] 22 dekabr 2006-cı il tarixli 340 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1109**) ilə «Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi»nin 4.9-cu bəndində «**müəssisələrin**» sözündən sonra «**,hüquqi şəxslərin və hüquqi şəxs statusuna malik olmayan qurumların**» sözləri, «**onların müavinləri**» sözlərindən sonra «**, habelə baş mühasibləri**» sözləri əlavə edilmişdir.

22 aprel 2010-cu il tarixli 258 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 04, maddə 298**) **ilə** "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin 4.9-cu bəndinə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Şirkətin strukturuna daxil olan qurumların, hüquqi şəxslərin və hüquqi şəxs statusuna malik olmayan qurumların rəhbərləri və onların müavinləri, habelə baş mühasibləri Şirkətin prezidenti tərəfindən vəzifəyə təyin olunur və vəzifədən azad olunur, onlar barəsində qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqlar həyata keçirilir~~

[25] 8 may 2021-ci il tarixli 1334 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 9 may 2021-ci il, 98, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 5 maddə 441**) ilə “Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi”nin 4.10-cu bəndinə “**strukturuna daxil olan qurumların**” sözlərindən sonra “, **törəmə və asılı təsərrüfat cəmiyyətlərinin**” sözləri əlavə edilmişdir.

-

[26] 22 aprel 2010-cu il tarixli 258 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 04, maddə 298**) **ilə** "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin 4.12-ci bənddə "**müəssisə və təşkilatları**" sözləri "**strukturuna daxil olan qurumları**" sözləri ilə əvəz edilmişdir.

[27] 22 aprel 2010-cu il tarixli 258 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 04, maddə 298**) **ilə** "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin 4.13-cü bənddə "**büdcəsinin**" sözü "**gəlir və xərclər smetasının**" sözləri ilə əvəz edilmişdir.

8 may 2021-ci il tarixli 1334 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 9 may 2021-ci il, 98, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 5 maddə 441**) ilə “Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi”nin 4.13-cü bəndində “**iş proqramlarının və**” sözləri “**iş planları, habelə**” sözləri ilə əvəz edilmişdir.

[28] 27 dekabr 2007-ci il tarixli 694 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 12, maddə 1244**) ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin 5.1-ci, 5.3-cü və 5.6-cı bəndlərində **"vitse-prezidenti - sərmayələr və marketinq üzrə"** sözlərindən sonra **", vitse-prezidenti - sosial məsələlər üzrə, vitse-prezidenti - ekologiya üzrə, vitse-prezidenti - kadr, rejim və informasiya texnologiyaları üzrə"** sözləri əlavə edilmişdir.

18 sentyabr 2004-cü il tarixli 127 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 9, maddə 681**) ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin (Əlavə I) 5.1-ci bəndində "**və Şirkətin iki vitse-prezidenti**" sözləri **", Şirkətin birinci vitse-prezidenti - geologiya, geofizika və yataqların işlənməsi üzrə, Şirkətin vitse-prezidenti**" sözləri ilə əvəz edilmişdir və “**hasilatı və nəqli**” sözləri “**nəqli və qaz təsərrüfatı məsələləri**” sözləri ilə əvəz edilmişdir.

22 dekabr 2006-cı il tarixli 340 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1109**) ilə «Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi»nin Nizamnamənin 5.1-ci bəndində «**vitse prezidenti — iqtisadi məsələlər üzrə**» sözlərindən sonra «**,vitse-prezidenti — emal üzrə, vitse-prezidenti — sərmayələr və marketinq üzrə**» sözləri əlavə edilmişdir.

23 fevral 2005-ci il tarixli 198 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 2, maddə 73**) ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin (Əlavə I) 5.1-ci bəndində "**Şirkətin birinci vitse-prezidenti - geologiya, geofizika v ə yataqların işlənməsi üzrə,**" sözlərindən sonra **"vitse-prezidenti - iqtisadi məsələlər üzrə və"** sözləri əlavə edilmişdir.

20 iyul 2009-cu il tarixli 126 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti 21 iyul 2009-cu il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 529**) ilə 5.1-ci bənddə **“Bu Nizamnamənin 4.1-ci bəndinə uyğun olaraq təsdiq edilmiş Şirkətin idarəetmə strukturuna”** sözləri **“Şirkətin rəhbərliyinə”** sözləri ilə əvəz edilmişdir və **“, habelə Şirkətin aparatı”** sözləri çıxarılmışdır.

22 aprel 2010-cu il tarixli 258 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 04, maddə 298**) **ilə** "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin 5.1-ci, 5.3-cü bəndlərdə və 5.6-cı bəndin birinci cümləsində "**vitse-prezidenti — kadr, rejim və informasiya texnologiyaları üzrə**" sözlərindən sonra "**, vitse-prezidenti — strateji inkişaf üzrə, vitse-prezidenti — neftin, qazın hasilatı və nəqli üzrə**" sözləri əlavə edilmişdir

17 mart 2016-cı il tarixli 851 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,**

**2016-cı il, 03, maddə 472**) ilə “Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi”nin 5.1-ci bənddə “**Şirkətin birinci vitse-prezidenti, Şirkətin birinci vitse-prezidenti - geologiya, geofizika və yataqların işlənməsi üzrə**" sözləri “**Şirkətin birinci vitse-prezidentləri, vitse-prezidenti - geologiya və geofizika məsələləri üzrə, vitse-prezidenti - yataqların işlənməsi üzrə**” sözləri ilə əvəz edilmişdir.

18 sentyabr 2004-cü il tarixli 127 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 9, maddə 681**) ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin (Əlavə I) 5.3-cü bəndində **"və vitse-prezidentləri" sözləri ", birinci vitse-prezidenti - geologiya, geofizika və yataqların işlənməsi üzrə və vitse-prezidenti**" sözləri ilə əvəz edilmişdir.

18 sentyabr 2004-cü il tarixli 127 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 9, maddə 681**) ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin (Əlavə I) 5.3-cü bəndində "**birinci vitse-prezidenti - geologiya, geofizika və yataqların işlənməsi üzrə**" sözlərindən sonra "**, vitse-prezidenti - iqtisadi məsələlər üzrə**" sözləri əlavə edilmiş, eləcə də yeni redaksiyada ikinci cümlə əlavə edilmişdir.

23 fevral 2005-ci il tarixli 198 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 2, maddə 73**) ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin 5.3-cü bəndində "**birinci vitse-prezidenti - geologiya, geofizika və yataqların işlənməsi üzrə**" sözlərindən sonra "**, vitse-prezidenti - iqtisadi məsələlər üzrə**" sözləri əlavə edilmişdir.

22 dekabr 2006-cı il tarixli 340 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1109**) ilə «Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi»nin 5.3-cü bəndində «**vitse prezidenti — iqtisadi məsələlər üzrə**» sözlərindən sonra «**,vitse-prezidenti — emal üzrə, vitse-prezidenti — sərmayələr və marketinq üzrə**» sözləri əlavə edilmişdir.

17 mart 2016-cı il tarixli **851** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 03, maddə 472**) ilə “Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi”nin 5.3-cü bəndində “**hasilatı və nəqli**” sözləri “**nəqli və qaz təsərrüfatı məsələləri**” sözləri ilə əvəz edilmişdir və “**birinci vitse-prezidenti, birinci vitse-prezidenti - geologiya, geofizika və yataqların işlənməsi üzrə**" sözləri “**birinci vitse-prezidentləri, vitse-prezidenti - geologiya və geofizika məsələləri üzrə, vitse-prezidenti - yataqların işlənməsi üzrə**” sözləri ilə əvəz edilmişdir.20 iyul 2009-cu il tarixli 126 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti 21 iyul 2009-cu il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 529**) ilə 5.4-cü bənddə ikinci və dördüncü abzasda ismin müvafiq hallarında **“aparat”** sözü ismin müvafiq hallarında **“Baş ofis”** sözləri ilə əvəz edilmişdir.

22 dekabr 2006-cı il tarixli 340 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1109**) ilə «Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi»nin 5.4-cü bəndinin beşinci abzası yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Şirkətin strukturuna daxil olan müəssisələrin rəhbərlərini və onların müavinlərini vəzifəyə təyin edir və vəzifədən azad edir, həmin müəssisələrin müvafiq olaraq nizamnamələrini və əsasnamələrini təsdiq edir;~~

-

22 aprel 2010-cu il tarixli 258 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 04, maddə 298**) **ilə** "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin 5.4-cü bəndin beşinci abzasdan "**, hüquqi şəxslərin və hüquqi şəxs statusuna malik olmayan qurumların**" sözləri çıxarılmışdır, "**təsdiq edir**" sözlərindən sonra "**, işəgötürən funksiyalarını həyata keçirən Kadrların İdarə Edilməsi Komitəsinin tərkibini, hüquq və vəzifələrini müəyyən edir**" sözləri əlavə edilmişdir.

26 fevral 2016-cı il tarixli **804** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti, 6 mart 2016-cı il, 52 ; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 02, II kitab, maddə 268**) ilə “Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi”nin 5.4-cü bəndin yeddinci abzasa “**rəhbərlik edir**” sözlərindən sonra “**, habelə Şirkətin Şurası haqqında Əsasnaməni təsdiq edir”** sözləri əlavə edilmişdir.

**[29]** 8 may 2021-ci il tarixli **1334** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 9 may 2021-ci il, 98**) ilə “Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi”nin V bölməsi yeni redaksiyada verilmişdir.

**~~V. Şirkətin idarə olunması~~**

-

~~5.1. Şirkətin rəhbərliyinə Şirkətin prezidenti, *Şirkətin birinci vitse-prezidentləri, vitse-prezidenti - geologiya və geofizika məsələləri üzrə, vitse-prezidenti - yataqların işlənməsi üzrə*, vitse-prezidenti - iqtisadi məsələlər üzrə, vitse-prezidenti — emal üzrə, vitse-prezidenti — sərmayələr və marketinq üzrə, vitse-prezidenti - sosial məsələlər üzrə, vitse-prezidenti - ekologiya üzrə, vitse-prezidenti — kadr, rejim və informasiya texnologiyaları üzrə" sözlərindən sonra, vitse-prezidenti — strateji inkişaf üzrə, vitse-prezidenti — neftin, qazın *nəqli və qaz təsərrüfatı məsələləri* üzrə və Şirkətin vitse-prezidenti, habelə Şirkətin aparatı daxildir.~~

~~5.2. Şirkətin prezidenti Şirkətin işini təşkil edir, Şirkətin qarşısında duran vəzifələrin yerinə yetirilməsini təmin edir və Şirkətin fəaliyyətinə rəhbərlik edir.~~

~~5.3. Şirkətin prezidenti, *birinci vitse-prezidentləri, vitse-prezidenti - geologiya və geofizika məsələləri üzrə, vitse-prezidenti - yataqların işlənməsi üzrə*, vitse-prezidenti - iqtisadi məsələlər üzrə və vitse-prezidenti, vitse-prezidenti — emal üzrə, vitse-prezidenti — sərmayələr və marketinq üzrə, vitse-prezidenti - sosial məsələlər üzrə, vitse-prezidenti - ekologiya üzrə, vitse-prezidenti - kadr, rejim və informasiya texnologiyaları üzrə, vitse-prezidenti — strateji inkişaf üzrə, vitse-prezidenti — neftin, qazın *nəqli və qaz təsərrüfatı məsələləri* üzrə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad edilir.~~

~~5.4. Şirkətin prezidenti:~~

~~Şirkətin Baş ofisinin və Şirkətin strukturunun tərkibinə daxil olan müəssisələrin səmərəli fəaliyyət göstərməsini təmin edir;~~

~~Şirkətin qərarlarının yerinə yetirilməsinə nəzarəti təşkil edir;~~

~~Şirkətin Baş ofisinin strukturunu və ştat cədvəlini təsdiq edir, aparatın struktur bölmələrinin əsasnamələrini təsdiq edir, qanunvericiliklə müəyyən edilmiş qaydada aparatın işçilərini vəzifəyə təyin edir və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və tənbeh tədbirləri tətbiq edir;~~

~~Şirkətin strukturuna daxil olan qurumların, hüquqi şəxslərin və hüquqi şəxs statusuna malik olmayan qurumların rəhbərlərini, onların müavinlərini və baş mühasiblərini vəzifəyə təyin edir və vəzifədən azad edir, həmin qurumların müvafiq olaraq Nizamnamələrini və Əsasnamələrini təsdiq edir, işəgötürən funksiyalarını həyata keçirən Kadrların İdarə Edilməsi Komitəsinin tərkibini, hüquq və vəzifələrini müəyyən edir.~~

~~səlahiyyətləri daxilində qanunvericiliklə müəyyən edilmiş qaydada hüquqi şəxslərin və hüquqi şəxs olmayan qurumların yaradılması, yenidən təşkili və ləğv edilməsi haqqında qərar qəbul edir;~~

~~Şirkətin Şurasının işini təşkil edir və ona rəhbərlik edir, *habelə Şirkətin Şurası haqqında Əsasnaməni təsdiq edir*;~~

~~Şirkətin adından vəkalətnaməsiz fəaliyyət göstərir, dövlət hakimiyyəti orqanları ilə, yerli və xarici hüquqi şəxslərlə, idarə və təşkilatlarla, beynəlxalq təşkilatlarla münasibətdə Şirkəti təmsil edir;~~

~~müəyyən edilmiş qaydada *və bu Nizamnamənin 5.9-cu bəndinin doqquzuncu abzasının tələbləri nəzərə alınmaqla* müqavilələr (o cümlədən, xarici şirkətlərlə) bağlayır və bunların yerinə yetirilməsini təmin edir;~~

~~vəkalətnamələr verir, hesabları və tədiyə tapşırıqlarını imzalayır;~~

~~Şirkətin əmlakı barəsində qanunvericiliklə müəyyən edilmiş qaydada sərəncam verir;~~

~~Şirkətin idarə olunması ilə əlaqədar daxili normativ sənədləri təsdiq edir, sərəncamlar və əmrlər verir, həmçinin Şirkətin Şurasının qərarlarını imzalayır;~~

~~*aidiyyəti şəxslə dəyəri Şirkətin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edir;*~~

~~qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirir.~~

~~5.5. Şirkətin vitse-prezidentləri Şirkətin prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad olunur.~~

~~5.6. Şirkətin *birinci vitse-prezidentləri, vitse-prezidenti - geologiya və geofizika məsələləri üzrə, vitse-prezidenti - yataqların işlənməsi üzrə*, vitse-prezidenti - iqtisadi məsələlər üzrə ,vitse-prezident — emal üzrə, vitse-prezident — sərmayələr və marketinq üzrə, vitse-prezidenti - sosial məsələlər~~

~~üzrə, vitse-prezidenti – ekologiya üzrə, vitse-prezidenti – kadr, rejim və informasiya texnologiyaları üzrə, vitse-prezidenti — strateji inkişaf üzrə, vitse-prezidenti — neftin, qazın *nəqli və qaz təsərrüfatı məsələləri* üzrə və vitse-prezidenti səlahiyyət bölgüsünə əsasən Şirkətin adından vəkalətnaməsiz fəaliyyət göstərir, dövlət hakimiyyəti orqanları ilə, yerli və xarici hüquqi şəxslərlə, idarə və təşkilatlarla, beynəlxalq təşkilatlarla münasibətdə Şirkəti təmsil edir, etibarnamələr verir və digər hüquqlara malikdirlər. Şirkətin vitse-prezidenti eyni zamanda Şirkətin müvafiq qurumunun rəhbəri vəzifəsini tuta bilər.~~

~~*5.7. Şirkətin Şurası kollegial idarəetmə orqanıdır. Şirkətin Şurasının tərkibinə Şirkətin prezidenti, vitse-prezidentləri və Şirkətin prezidenti tərəfindən müəyyən olunan digər vəzifəli şəxsləri daxildir. Şirkətin Şurasının iclaslarına Şirkətin prezidenti sədrlik edir.*~~

~~5.8. Şirkətin Şurasının iclası ayda bir dəfədən az olmayaraq keçirilir. Şirkətin Şurasının növbədənkənar iclası Şirkətin prezidenti tərəfindən çağırılır. Şirkətin Şurasının iclasları onun tərkibinə daxil olan şəxslərin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Şirkətin Şurasının qərarları açıq səsvermə yolu ilə adi səs çoxluğu ilə qəbul olunur. Səslər bərabər bölündükdə *Şuranın sədrinin və ya onu əvəz edən Şuranın digər üzvünün* səsi həlledicidir.~~

~~5.9. Şirkətin Şurasının iclasında aşağıdakı məsələlər müzakirə *olunur və onlar barədə müvafiq qərarlar qəbul edilir*:~~

~~Şirkətin strukturuna daxil olan qurumların fəaliyyətinə dair illik iş proqramları və onların yerinə yetirilməsi haqqında hesabatlar;~~

~~Şirkətin mərkəzləşdirilmiş fondlarının yaradılması və istifadə olunması qaydaları;~~

~~Şirkətin tərkibinə daxil olan müəssisələrin qarşılıqlı münasibətlərinin, məhsul, xidmət və işlərin hesablama qiymətləri;~~

~~Şirkətin tərkibinə daxil olan müəssisələrin istehsal və təsərrüfat funksiyalarının tam və ya qismən mərkəzləşdirilməsi;~~

~~Şirkətin xarici şirkətlərlə birgə işinin məqsədəuyğunluğu;~~

~~Şirkətin tərkibinə daxil olan müəssisələr arasındakı münasibətlərdə yaranan mübahisələr;~~

~~Şirkətin inkişaf strategiyasının formalaşdırılması;~~

~~*Şirkətin xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Şirkətin aktivlərinin 5 faiz və daha çox hissəsini təşkil edən əqdin bağlanması;*~~

~~Şirkətin fəaliyyətinə aid olan digər məsələlər.~~

~~5.10. Şirkətin Şurasının iclasları müvafiq qaydada protokollaşdırılır və müzakirə edilmiş məsələlər üzrə qərarlar qəbul edilir. Şirkətin Şurasının qərarları Şirkətin prezidenti tərəfindən imzalandıqdan sonra qüvvəyə minir.~~

[30] 11 avqust 2021-ci il tarixli **1421** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 12 avqust 2021-ci il, 167**) ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin 5.19-cu bəndinin ikinci cümləsində "**, geologiya və geofizika məsələləri üzrə, yataqların işlənməsi üzrə, iqtisadi məsələlər üzrə, emal üzrə, sərmayələr və marketinq üzrə, sosial məsələlər üzrə, ekologiya üzrə, kadr, rejim və informasiya texnologiyaları üzrə, strateji inkişaf üzrə, neftin, qazın nəqli və qaz təsərrüfatı məsələləri üzrə vitse-prezidentlərindən və**" sözləri "**və 12 (on iki)**" sözləri ilə əvəz edilmişdir.

[31] 20 iyul 2009-cu il tarixli 126 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 21 iyul 2009-cu il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 529**) ilə 6.1-ci bənddə **"statistika hesabatını" sözləri "maliyyə və statistika hesabatlarını, vergi bəyannamələrini"** sözləri ilə əvəz edilmişdir.

22 dekabr 2014-cü il tarixli **428** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 25 dekabr 2014-cü il, 283, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 12, maddə 1582**) ilə "Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin 6.1-ci bəndin birinci cümləsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Şirkət qanunvericiliklə müəyyən edilmiş qaydada mühasibat uçotunu aparır, maliyyə və statistika hesabatlarını, vergi bəyannamələrini tərtib edir və müvafiq dövlət orqanlarına təqdim edir.~~

[32] 22 dekabr 2014-cü il tarixli **428** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 25 dekabr 2014-cü il, 283, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 12, maddə 1582**) ilə "Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin Nizamnaməsi"nə yeni məzmunda 6.1-1-ci bənd əlavə edilmişdir.

[33] 20 iyul 2009-cu il tarixli 126 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 21 iyul 2009-cu il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 529**) ilə 6.2-ci bənddə **"dövlət orqanları"** sözü **"orqanlar"** sözü ilə əvəz edilmişdir.

22 aprel 2010-cu il tarixli 258 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 04, maddə 298**) **ilə** "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin 6.1-ci bəndə yeni məzmunda ikinci cümlə əlavə edilmişdir.

[34] 26 fevral 2016-cı il tarixli **804** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 6 mart 2016-cı il, 52 ; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 02, II kitab, maddə 268**) ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi"nin yeni məzmunda 6.3-cü bənd əlavə edilmişdir.

[35] 27 dekabr 2007-ci il tarixli 694 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 12, maddə 1244**) ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturu"nun I bölməsinin 1.7-ci bəndi 1.10-cu bənd hesab edilmişdir və bölməyə yeni məzmunda 1.7-1.9-cu bəndlər əlavə edilmişdir.

7 mart 2007-ci il tarixli **539** nömrəli Azərbaycan Respublikasının Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, 3, maddə 219**) ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturu"nun II bölməsində 13-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunmuş və bölməyə aşağıdakı məzmunda **14-18**-ci bəndlər əlavə edilmişdir.

20 iyul 2009-cu il tarixli 126 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 21 iyul 2009-cu il, 15, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 5297**) ilə **"I. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin İdarəetmə Strukturu:"** sözləri və **"2. Şirkətin aparatı."** sözləri çıxarılmışdır.

[36] 8 may 2021-ci il tarixli **1334** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 9 may 2021-ci il, 98**) ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturu"nun 1-ci və 2-ci hissələri ləğv edilmişdir.

[37] 17 mart 2016-cı il tarixli **851** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 03, maddə 472**) ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Strukturu"nun 1.3-cü bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~1.3. Birinci vitse-prezident — geologiya, geofizika və yataqların işlənilməsi üzrə~~

[38] 22 aprel 2010-cu il tarixli 258 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 04, maddə 298**) **ilə** "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Strukturu"nun 1.10-cu bənd 1.12-ci bənd hesab edilmişdir və yeni məzmunda 1.10-cu və 1.11-ci bəndlər əlavə edilmişdir.

17 mart 2016-cı il tarixli **851** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 03, maddə 472**) ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Strukturu"nun 1.11-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~1.11. Vitse-prezident — neftin, qazın hasilatı və nəqli üzrə~~

[39] 18 sentyabr 2004-cü il tarixli 127 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 9, maddə 681**) ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Strukturu"nda (Əlavə II) "I. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin İdarəetmə Strukturu" bölməsinin "I. Rəhbərlik" yarımbölməsində dördüncü abzasda "**Vitse-prezident - geologiya, geofizika və yataqların işlənməsi üzrə;**" sözləri "**1-ci vitse-prezident - geologiya, geofizika və yataqların işlənməsi üzrə;**" sözləri ilə əvəz edilmişdir.

23 fevral 2005-ci il tarixli 198 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 2, maddə 73**) ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Strukturu"nda (Əlavə II) "I. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin İdarəetmə Strukturu" bölməsinin "Rəhbərlik" yarımbölməsində beşinci abzas altıncı abzas hesab edilmiş və yeni redaksiyada beşinci abzas əlavə edilmişdir.

22 dekabr 2006-cı il tarixli 340 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1109**) ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Strukturu»nda (Əlavə II) «Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin İdarəetmə Strukturu» bölməsində «1. Rəhbərlik» yarımbəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~1. Rəhbərlik:~~
~~Prezident;~~
~~Birinci vitse-prezident;~~
~~1-ci vitse-prezident - geologiya, geofizika və yataqların işlənməsi üzrə;~~
~~Vitse-prezident - iqtisadi məsələlər üzrə;~~
~~Vitse-prezident.~~

17 mart 2016-cı il tarixli **851** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 03, maddə 472**) ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Strukturu"nun 1.12-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~1.12. Vitse-prezident~~

[40] 17 mart 2016-cı il tarixli **851** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 03, maddə 472**) ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Strukturu"na yeni məzmunda 1.13-cü və 1.14-cü bəndlər əlavə edilmişdir.

[41] 8 may 2021-ci il tarixli **1334** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 9 may 2021-ci il, 98**) ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturu"na yeni məzmunda 3-1-ci və 3-2-ci hissələr əlavə edilmişdir.

[42] 22 aprel 2010-cu il tarixli 258 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 04, maddə 298**) **ilə** "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Strukturu"nun 6-9.2-ci bəndlər müvafiq olaraq 8-11.2-ci bəndlər hesab edilmişdir və yeni məzmunda 6-cı və 7-ci bəndlər əlavə edilmişdir.

[43] 20 iyul 2009-cu il tarixli 126 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 21 iyul 2009-cu il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 529**) ilə yeni məzmunda 2-8-ci bəndlər əlavə edilmişdir.

24 fevral 2014-cü il tarixli **112** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 119**) ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Strukturu"nun 10-cu hissəyə "**təsisatlar**" sözündən sonra "**(törəmə və asılı hüquqi şəxslər)**" sözləri əlavə edilmişdir.

8 may 2021-ci il tarixli **1334** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 9 may 2021-ci il, 98**) ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturu"nun 10-cu hissəsində "**hüquqi şəxslər**" sözləri "**təsərrüfat cəmiyyətləri**" sözləri ilə əvəz edilmişdir.

[44] 20 iyul 2009-cu il tarixli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 21 iyul 2009-cu il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 529**) ilə **"II. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin tərkibinə daxil olan müəssisələr"** sözləri **"9. Şirkətin strukturuna daxil olan müəssisələr"** sözləri ilə əvəz edilmişdir.

[45] 20 iyul 2009-cu il tarixli 126 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 21 iyul 2009-cu il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 529**) **ilə "Azneft" İstehsalat Birliyi"** sözlərindən sonra yeni məzmunda yeni bənd əlavə edilmişdir.

[46] 22 aprel 2010-cu il tarixli 258 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 04, maddə 298**) **ilə** "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Strukturu"nun 9.3-9.19-cu bəndlər müvafiq olaraq 11.4-11.20-ci bəndlər hesab edilmişdir və yeni məzmunda 11.3-cü bənd əlavə edilmişdir.

[47] 22 dekabr 2006-cı il tarixli 340 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1109**) ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Strukturu»nda (Əlavə II) Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin tərkibinə daxil olan müəssisələr» bölməsində «**2. Geofizika və mühəndis geologiyası» İstehsalat Birliyi**» sözləri «**2. Geofizika və geologiya İdarəsi**» sözləri ilə əvəz edilmişdir.

[48] 14 sentyabr 2006-cı il tarixli 458 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 9, maddə 736**) ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Strukturu"nda (Əlavə II) 5-ci bəndinin "**Xarici sərmayələr" İdarəsi**" sözləri "**Sərmayələr" İdarəsi**" sözləri ilə əvəz edilmişdir.

[49] 23 fevral 2005-ci il tarixli 198 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, 2, maddə 73**) ilə

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Strukturu"nda (Əlavə II) "II. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin tərkibinə daxil olan müəssisələr" yarımbölməsində 7-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:
~~7. "Azərneftyanacaq" neft emalı zavodu;~~
-

[50] 7 oktyabr 2009-cu il tarixli 164 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərman **(“Azərbaycan” qəzeti 8 oktyabr 2009-cu il, 223, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 10, maddə 777)** ilə “Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Strukturu”na 9.10-9.18-ci bəndlər müvafiq olaraq 9.11-9.19-cu bəndlər hesab edilmişdir və yeni məzmunda 9.10-cu bənd əlavə edilmişdir.

[51] 1 sentyabr 2011-ci il tarixli **495** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 09, maddə 789)** ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Strukturu”nda 11.12-11.20-ci bəndlər müvafiq olaraq 11.13-11.21-ci bəndlər hesab edilmişdir və 11.12-ci bənd əlavə edilmişdir.

[52] 22 dekabr 2006-cı il tarixli 340 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 12, maddə 1109**) ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Strukturu»nda (Əlavə II) Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin tərkibinə daxil olan müəssisələr» bölməsində 9-cu və 10-cu bəndlər əlavə edilmişdir.

[53] 20 iyul 2009-cu il tarixli 126 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 21 iyul 2009-cu il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 529)** ilə **“Qaz əməliyyatları” İdarəsi”** sözləri **“Qaz ixrac” İdarəsi”** sözləri ilə əvəz edilmişdir.

[54] 14 sentyabr 2006-cı il tarixli 458 nömrəli Fərman (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, 9, maddə 736**) ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Strukturu"nda (Əlavə II) 11-13-cü bəndlər əlavə edilmişdir.

[55] 24 fevral 2014-cü il tarixli **112** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 119)** ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Strukturu"nun 11.18-ci bənd ləğv edilmişdir.

[56] 20 iyul 2009-cu il tarixli 126 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 21 iyul 2009-cu il, 157)** ilə **“Elmi tədqiqatlar” institutu”** sözləri **“Neftqazelmitədqiqatlayihə” institutu”** sözləri ilə əvəz edilmişdir.

[57] 29 noyabr 2011-ci il tarixli **539** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 30 noyabr 2011-ci il, 264; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 11, maddə 1011)** ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Strukturu”na 11.22-ci bənd əlavə edilmişdir.

[58] 24 fevral 2014-cü il tarixli **112** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 119)** ilə "Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Strukturu"nun 11.22-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 11.23-11.25-ci bəndlər əlavə edilmişdir.

[59] 5 iyul 2018-ci il tarixli **167** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, I kitab, maddə 1453**) ilə “Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturu”nun 11.25-ci bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və yeni məzmunda 11.26-cı və 11.27-ci bəndlər əlavə edilmişdir.

[60] 20 iyul 2009-cu il tarixli 126 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 21 iyul 2009-cu il, 157, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, 7, maddə 529)** ilə **“Neftqazlayihə” institutu”** sözləri çıxarılmışdır.